DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 08 (325) / AVQUST 2018-Cİ İL

## BİOMETRİK GÖSTƏRİCİLƏRİ ÖZÜNDƏ ƏKS ETDİRƏN BİR NÖMRƏLİ YENİ NƏSİL ŞƏXSİYYƏT VƏSİQƏSİ PREZİDENT İLHAM ƏLİYEVƏ TƏQDİM OLUNUB



Sentyabrın 1-dən Azərbaycanda yeni nəsil elektron şəxsiyyət vəsiqələrinin tətbiqinə başlanır.

Azərbaycan Respublikası vətəndaşının biometrik göstəricilərini özündə əks etdirən bir nömrəli elektron şəxsiyyət vəsiqəsi avqustun 31-də Prezident İlham Əliyevə təqdim olunub.

Dövlətimizin başçısı şəxsiyyət vəsiqəsi üçün foto çəkdirib. Prezident İlham Əliyev elektron imza qoyub. Bir nömrəli elektron şəxsiyyət vəsiqəsi dövlətimizin başçısına təqdim olunub.

Daxili işlər naziri Ramil Usubov və iqtisadiyyat naziri Şahin Mustafayev elektron şəxsiyyət vəsiqəsinin hazırlanması və vətəndaşlara verilməsi ilə bağlı Prezident İlham Əliyevə məlumat veriblər.

Qeyd edək ki, yeni nəsil şəxsiyyət vəsiqələri təhlükəsizlik nöqteyi-nəzərdən köhnə vəsiqələrdən daha təkmil olacaq. Bu vəsiqələrə vətəndaşın yaşayış yeri üzrə qeydiyyatı, ailə vəziyyəti haqqında məlumatlar, habelə şəxsiyyət vəsiqəsi sahibinin biometrik fotosu və digər fərdi göstəriciləri özündə birləşdirən elektron daşıyıcı - çip yerləşdiriləcək. Bütün parametrlərə cavab verən, saxtalaşdırılmanın qarşısının alındığı, məlumatların elektronlaşdırıldığı yeni nəsil şəxsiyyət vəsiqələri üçün vətəndaşlar bütün ərazi polis orqanlarına və "ASAN xidmət" mərkəzlərinə müraciət edə bilərlər.

Şəxsiyyət vəsiqələrinin çapı isə Daxili İşlər Nazirliyinin 10 regional mərkəzində və iki "ASAN xidmət" mərkəzində həyata keçiriləcək.

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Çinin nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva avqustun 31-də Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Li Syaolinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonağın Azərbaycana səfərinin uğurlu olacağına əminliyini ifadə edən Birinci vitse-prezident Mehriban Əliyeva Li Syaolinin Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri kimi ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsinə yönələn fəaliyyətinə görə ona təşəkkürünü bildirib. Birinci vitse-prezident Çinlə Azərbaycan arasında münasibətlərin dostluq və tərəfdaşlıq üzərində qurulduğunu, qarşılıqlı hörmətə əsaslandığını vurğulayıb. Mehriban Əliyeva iki ölkənin müxtəlif sahələrdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq etdiyini bildirib, siyasi əlaqələrin ən yüksək səviyyədə olduğunu diqqətə çatdırıb. Heydər Əliyev Fondunun Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası ilə uğurlu əməkdaşlıq etdiyini bildirən Mehriban Əliyeva ötən il iki qurum arasında dostluq və əməkdaşlıq Memorandumunun imzalandığını və bu istiqamətdə artıq işlərin başlandığını diqqətə çatdırıb.

"Bu il Çində yaradılan yay düşərgəsini Azərbaycandan olan uşaqlar da ziyarət etdilər, Çində Azərbaycan mədəniyyət günləri, o cümlədən Azərbaycan sərgiləri təşkil edildi", - deyən Mehriban Əliyeva gələcək əməkdaşlıq üçün böyük potensialın olduğuna əminliyini ifadə edib. Birinci vitse-prezident Çinin dünyanın ən güclü iqtisadiyyatlarından birinə malik olduğunu qeyd edib və bu sahədə birgə fəaliyyət üçün yaxşı imkanların olduğunu söyləyib. Nəqliyyat sahəsində mövcud olan geniş potensialı qeyd edən Mehriban Əliyeva Azərbaycanın artıq iri mərkəzə çevrildiyini, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı ilə Asiyaya ən qısa yolun çəkildiyini bildirib. Həm Azərbaycanın, həm də Çinin tarixən Böyük İpək Yolu üstündə yerləşdiyini və bunun əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını vurğulayıb. Bu yaxınlarda Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına müşahidəçi dövlət kimi üzv olmaq üçün ərizə təqdim etdiyini, bu ilin may ayında təşkilatın mənzil-qərargahında Azərbaycan mədəniyyət günlərinin uğurla keçirildiyini xatırladan Birinci vitse-prezident ölkəmizə dəstəyə və göstərilən yüksək münasibətə görə təşəkkürünü çatdırıb. Mehriban Əliyeva Azərbaycanla Çin arasında dostluq körpülərinin yaradıldığını və Li Syaolinin səfərinin yeni tərəfdaşlıq münasibətlərinin qurulmasına mühüm töhfə verəcəyinə əminliyini bildirib.

Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Li Syaolin Mehriban Əliyeva ilə görüşündən şərəf hissi duyduğunu deyərək, bu görüşün gələcək əməkdaşlığın müzakirəsi baxımından əhəmiyyətini qeyd edib. İlk dəfədir Azərbaycana səfər etdiyini deyən qonaq paytaxtımızın onda dərin təəssürat yaratdığını, Heydər Əliyev Mərkəzi və oradakı sərgilərlə tanışlıqdan məmnunluğunu ifadə edib. Qonaq Heydər Əliyev Fondu ilə əməkdaşlığa görə təşəkkürünü bildirib.

Görüşün sonunda Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva qonaqlara xatirə hədiyyəsi təqdim edib.

# Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik



Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının mənəvi birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, xalqımıza və Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Qurban mərasimi Uca Yaradana məhəbbət və itaət, yüksək mənəvi-əxlaqi dəyərlərə hörmət, hər bir bəşər övladına mərhəmət və dözümlülük təlqin edən İslam dininin insanlar üçün hidayət yolu seçilməsi ilə əlamətdardır. Bu mübarək bayram bütün dünya müsəlmanlarının mənəvi-ruhi birliyini, əməli-saleh insanların Tanrı sevgisini və haqq-ədalət naminə hər cür fədakarlığa hazır olmalarını təcəssüm etdirir.

Mütərəqqi islami dəyərlərə bağlılığı ilə seçilən Azərbaycan xalqı əsrlər boyu, hətta ən mürəkkəb dövrlərdə Qurban bayramını özünün əziz günlərindən biri kimi qoruyub saxlamışdır. Hazırda minlərlə həmvətənimizin də aralarında olduğu milyonlarla müsəlman müqəddəs Həcc ziyarətində möhtəşəm həmrəylik nümayiş etdirərək, Uca Yaradana şükranlarını bildirir, ölkəmizdə və dünyada sülhün, əmin-amanlığın bərqərar olması üçün dualar edirlər.

Bayram günləri müsəlmanlarımız Allah və din yolunda öz müqəddəs borcunu yerinə yetirir, qurbanlar kəsilir, imkansızlara və ehtiyacı olanlara yardımlar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, hər belə bayram cəmiyyətimizdə xeyirxahlığın, birlik və bərabərliyin, Vətənə və milli dövlətçiliyə sədaqətin təntənəsinə çevrilir.

İnanıram ki, bu mübarək bayram müstəqil Azərbaycan Respublikasının tərəqqisi naminə xalqımızın qəhrəmanlıq və fədakarlıq qüdrətini artıracaq, ölkəmizdə vətəndaş sülhünü və milli-mənəvi həmrəyliyi daha da gücləndirəcəkdir.

Əziz bacı və qardaşlarım!

Kəsdiyiniz qurbanların Allah tərəfindən qəbul olunması arzusu ilə bir daha hər birinizə möhkəm cansağlığı, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

**Qurban bayramınız mübarək olsun!**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 20 avqust 2018-ci il.**

# DÖVLƏT KOMİTƏSİNİN ƏMƏKDAŞLARINA MEDALLAR TƏQDİM OLUNUB

Avqustun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 iyul 2018-ci il tarixli Sərəncamı ilə "Tərəqqi" və "Dövlət qulluğunda fərqlənməyə görə" medallarına layiq görülmüş əməkdaşlara medallar təqdim olunub.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dövlət-din münasibətlərinin uğurla tənzimlənməsinə xüsusi önəm verən, bu sahənin inkişafını daim diqqət mərkəzində saxlayan dövlət başçısına Komitənin kollektivi adından dərin minnətdarlığını bildirib. Göstərilən etimadı doğrultmaq, verilən tapşırıqları vaxtında və yüksək səviyyədə yerinə yetirmək üçün daha böyük məsuliyyət və əzmkarlıqla çalışmağın zəruriliyini diqqətə çatdırıb.

Sonra Dövlət Komitəsinin sədri təltif olunan əməkdaşları təbrik edərək, mükafatları sahiblərinə təqdim edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.













# XAÇMAZDA “AZƏRBAYCANIN DÖVLƏT-DİN MODELİ: ƏSAS İSTİQAMƏTLƏR” MÖVZUSUNDA REGİONAL KONFRANS KEÇİRİLİB



Hazırda Yaxın və Orta Şərqdə baş verən müharibələrin, qanlı toqquşmaların fonunda ölkəmizdə Azərbaycançılıq məfkurəsinin, milli-mənəvi dəyərlərin, tolerantlıq siyasətinin daha da möhkəmləndirilməsi və bu mühitin qorunub saxlanılması dövlət siyasətinin mühüm istiqamətlərindəndir. Belə şəraitdə gənc nəslin milli-mənəvi dəyərlərə bağlı, milli ruhda yetişdirilməsi ən vacib amillərdəndir.

Bu barədə avqustun 28-də Xaçmazda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Xaçmaz Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə “Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər” mövzusunda keçirilən regional konfransda danışılıb.

Tədbirdə DQİDK-nın, Xaçmaz RİH-in, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) rəsmi şəxsləri, həmçinin yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatının fəalları, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransda dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas istiqamətləri, multikultural dəyərlərin qorunması, eyni zamanda tolerantlıq mühitinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi barədə geniş mühazirə ilə çıxış edib.

Mübariz Qurbanlı Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması istiqamətində görülən işlərdən danışaraq, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılmasının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Qeyd edib ki, Ulu Öndərin dövlət-din münasibətləri sahəsində qoyduğu nümunəvi siyasətin onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bu gün respublikamızda dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir.

Konfransda çıxış edən Xaçmaz RİH-in başçısı Şəmsəddin Xanbabayev son illər ölkəmizin bütün bölgələrində olduğu kimi, Xaçmazda da dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği istiqamətində xeyli iş görüldüyünü qeyd edib. Bildirib ki, bu gün hər bir Azərbaycan vətəndaşının, xüsusən də gənclərin üzərinə dinimizi, milli-mənəvi dəyərlərimizi düzgün öyrənmək və təbliğ etmək kimi məsuliyyətli vəzifə düşür.

Regional konfransın ilk günü iştirakçıların suallarının cavablandırılması ilə yekunlaşıb.

***Konfrans işini avqustun 29-da “Dini radikalizmlə mübarizə və maarifləndirmə” mövzusunda panel formatında davam etdirib.***



Tədbirdə məktəb direktorları, onların təlim-tərbiyə işləri üzrə müavinləri, ümumtəhsil məktəblərində çalışan psixoloqlar, “Həyat bilgisi” fənnini tədris edən müəllimlər, rayonun aktiv gəncləri, Yeni Azərbaycan



Partiyası Rayon Gənclər Təşkilatının fəalları, həmçinin Xaçmaz Rayon Gənclər və İdman İdarəsinin əməkdaşları iştirak ediblər.

Xaçmaz Rayon İcra Hakimiyyəti başçısının müavini Samir Nemətov rayondakı dini durum haqqında məlumat verərək, dini maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə bu istiqamətdə keçirilən tədbirləri yüksək qiymətləndirib.

“Dini radikalizmlə mübarizə və maarifləndirmə” mövzusunda geniş məruzə ilə çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov dini radikalizm və ekstremizmə qarşı mübarizə tədbirlərindən bəhs edib. Bu istiqamətdə əsas vasitənin maarifləndirmə metodu olduğunu qeyd edən sədr müavini gənclərin düzgün dini biliklərə yiyələnmələrinin vacibliyini diqqətə çatdırıb.

Dünyada baş verən münaqişələrin bir hissəsinin dini zəmində olduğunu bildirən G.İsmayılov dinin əsas mahiyyətini nəzərə almayaraq ondan öz maraqları naminə yararlanmaq kimi mənfi halların törətdiyi fəsadlara toxunub. Bildirilib ki, bəzən dini dəyərlərlə dünyəvi dəyərlər qarşılaşdırılır, dünyəvilik anlayışı ilə dini dəyərlərin ziddiyyət təşkil etməsi istiqamətində əsassız fikirlər səsləndirilir.

Xalqımızın çoxəsrlik tolerantlıq ənənəsinə malik olduğunu bildirən natiq Azərbaycanın dini radikalizmin ən az yayıldığı ölkələr sırasında olduğunu deyib. O, bunun əsas səbəblərindən birinin dövlətin apardığı düzgün din siyasəti olduğunu vurğulayıb.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ MÜBARİZ QURBANLI XAÇMAZDA VƏTƏNDAŞLARI QƏBUL EDİB



Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı avqustun 28-də Xaçmaz şəhərində şimal bölgəsindən olan sakinlərin müraciətlərini dinləyib.

Qəbuldan öncə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyində keçirilən qəbulda Xaçmaz, Quba, Qusar, Şabran və Siyəzən rayonlarının sakinləri iştirak edib.

Vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərə dini ədəbiyyatın verilməsi və digər məsələlərlə bağlı müraciət ünvanlayıblar.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı vətəndaşların müraciətlərini diqqətlə dinləyərək bəzilərinin həlli, bəzilərinin isə araşdırılması üçün göstərişlər verib. Bir sıra müraciətlər yerindəcə həll edilib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə baxılması və müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti qurumlara çatdırılmaq məqsədilə qeydiyyata alınıb.



# BAKIDA "QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI VƏ DİNİ İCMALAR: BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ" ADLI KONFRANS KEÇİRİLİB

Avqustun 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının birgə təşkilatçılığı ilə "Qeyri-hökumət təşkilatları və dini icmalar: birgə fəaliyyətin təşkili" adlı konfrans keçirilib.

Konfransda çıxış edən DQİDK-nın sədri Mübariz Qurbanlı demokratik dövlət quruculuğu prosesində qeyri-hökumət təşkilatlarının (QHT) rolundan danışıb. Bildirib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə demokratik proseslərin inkişafında, eyni zamanda vətəndaş cəmiyyətinin qurulmasında QHT-lər əhəmiyyətli rol oynayıblar.



Mübariz Qurbanlı vurğulayıb ki, ölkə qanunvericiliyində QHT-lərin hərtərəfli fəaliyyətini təmin etmək üçün müəyyən qanunlar, qərarlar qəbul edilib. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə bununla bağlı çox mühüm tədbirlər görülüb. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizdə demokratik proseslərin inkişafında QHT-lərin rolunun daha da genişləndirilməsi üçün hərtərəfli tədbirlər həyata keçirilir. Eyni zamanda, müxtəlif ictimai əhəmiyyətli məsələlərin müzakirəsində olduğu kimi, QHT-lər din-dövlət münasibətləri, din modeli, dini maarifləndirmə və digər məsələlərlə əlaqədar müzakirələrdə də DQİDK, Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ilə bir sıra layihələrin həyata keçirilməsində birgə iştirak və əməkdaşlıq edirlər. Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və DQİDK arasında birgə fəaliyyət haqqında protokol imzalanıb. Bu protokola əsasən hər il müxtəlif tədbirlər keçirilir.

Dini radikalizmlə mübarizə tədbirlərindən danışan Komitə sədri qeyd edib ki, DQİDK cəmiyyətin bütün strukturları, o cümlədən QHT və ictimai birliklərlə birgə bir sıra layihələr həyata keçirir. M.Qurbanlı deyib ki, Azərbaycanın bölgələrində gənclərlə, ziyalılarla, bütövlükdə cəmiyyətin müxtəlif təbəqələri ilə daha çox görüşlərə ehtiyac var, biz bu görüşləri daha da artırırıq.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyev mövzunun əhəmiyyətindən danışıb. Bildirib ki, dövlət-din-vətəndaş münasibətləri tarix boyu müzakirələrin predmeti olub və sevindirici haldır ki, Azərbaycan bu baxımdan hər zaman örnək göstərilib. Amma bununla yanaşı, əlbəttə çətinliklər, çağırışlar da az deyil. A.Quliyev qeyd edib ki, QHT-lər vətəndaş cəmiyyətinin ən aparıcı komponentidir, bir növ cəmiyyətin lokomotividir. Ona görə də QHT-lər hər zaman dövlət maraqlarının qorunması, ictimai əhəmiyyətli məsələlərin həllində fəallıq nümayiş etdirirlər.

QHT-nin milli-mənəvi dəyərlərin təbliğində, qorunub-saxlanılmasındakı rolunu vurğulayan A.Quliyev bu sahədə görülən işlərin gündən-günə artdığını deyib. Bildirib ki, Azərbaycanda vətəndaş cəmiyyəti institutları dini dəyərlərimizin qorunması və təbliğində hər zaman milli və dövlətçilik maraqlarımızdan çıxış edir. Dövlət QHT-lərin bu istiqamətdəki fəaliyyətini nəinki təqdir edir, eyni zamanda onların bu sahədəki istənilən təşəbbüsünə maliyyə dəstəyi verir. Şura ilə Komitənin birgə əməkdaşlığı ənənə halı alıb və bir çox mövzularda fəaliyyətimizi əlaqələndiririk.

A.Quliyev qeyd edib ki, bu gün cəmiyyətimizi narahat edən əsas məsələlərdən biri dini radikalizmdir. Azərbaycanda dini radikalizm heç vaxt olmayıb. Lakin bu, xaricdən süni yolla ixrac edilən ideologiya olduğundan cəmiyyəti narahat etməkdədir. Çünki Azərbaycanda tarixən başqa dinlərə tolerant yanaşılıb, müxtəlif təriqətlər arasında harmoniya qorunub.

QMİ sədrinin müavini Fuad Nurullayev, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev, DQİDK yanında İctimai Şuranın sədri, Konstitusiya Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev, "Din və Demokratiya Mərkəzi" İctimai Birliyinin sədri Nəriman Qasımzadə, Milli QHT Forumunun prezidenti Rauf Zeyni, Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev, İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının sədri Fazil Abbasov və digər QHT sədrləri dini maarifləndirmə işinin artırılmasının, cəmiyyətdə radikallığa şərait yaradan halların aradan qaldırılması istiqamətində hamının səfərbər olmasının, mövcud dini sabitliyi və dini dəyərləri qoruyub saxlamağın əhəmiyyətini vurğulayıblar.

# BAKIDA "MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ VƏ DİNİ İCMALAR" MÖVZUSUNDA KONFRANS BAŞ TUTUB

Avqustun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Bakıda "Mənəvi dəyərlərin təbliği və dini icmalar" mövzusunda konfrans keçirilib.

Konfransda DQİDK-nın rəhbərliyi, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu, Qafqaz Müsəlmanları İdarəsi və Azərbaycan Milli Elmlər Akademiyasının rəsmi şəxsləri, ölkəmizdə fəaliyyət göstərən dini konfessiya rəhbərləri, media təmsilçiləri, eləcə də din icma sədrləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.



Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı xalqımızın özünün milli-mənəvi irsinə, onu bütövləşdirən və zənginləşdirən komponentlərə, eyni zamanda birgəyaşayış mühiti və tolerantlıq kimi xüsusiyyətlərə söykənərək ziddiyyətli ictimai-siyasi sınaqlarından məharətlə çıxa bildiyini, dünya xalqları arasında öz varlığını, dövlətçilik ənənələrini qoruyub saxlamağı bacardığını bildirib. O, Azərbaycanda milli ruhun yüksəlməsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətlərinin olduğunu diqqətə çatdırıb. Komitə sədri dövlət müstəqilliyimizin bərpasından sonra Ümummilli Liderin ortaya qoyduğu azərbaycançılıq ideologiyasının adət-ənənələrimizin qorunması baxımından çox əhəmiyyətli olduğunu deyib. Qeyd edilib ki, əsası Ulu Öndər tərəfindən qoyulan dövlət-din siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla aparılır, Azərbaycanda milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasına dövlət səviyyəsində qayğı göstərilir.

Komitə sədri mənəvi dəyərlərin qorunaraq sonrakı nəsillərə çatdırılmasında Mənəvi Dəyərlərin Təbliği Fondu və Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyətinə diqqət çəkib.

Daha sonra Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmər xanım Cavadlı milli-mənəvi dəyərlərimizin bir hissəsi olan dinimizin, dilimizin qorunmasında icmaların rolunu xüsusi qeyd edib. Müstəqillik illərində dini mühitin zənginləşdirilməsi istiqamətində mühüm işlərin görüldüyünü bildirən Q.Cavadlı bu sahəyə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan bəhs edib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun himayəçilər şurasının üzvü, "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev Azərbaycanın dünyada tolerantlığa nümunə olduğunu, bununla yanaşı, milli-mənəvi dəyərlərimizin layiqincə qoruyub saxlanıldığını bildirib.

Bu gün milli-mənəvi dəyərlərin təbliği istiqamətində mühüm işlərin görüldüyünü qeyd edən B.Quliyev Azərbaycan xalqının söykəndiyi bu dəyərlərin Ulu Öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında durduğunu vurğulayıb.

Bilik Fondunun Aparat rəhbəri İsaxan Vəliyev milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsinin təşviqi istiqamətində Fondun həyata keçirdiyi layihələrdən söz açıb. Layihələrə dini qurumların rəhbərlərinin cəlb edildiyini deyən İ.Vəliyev milli-mənəvi dəyərlərin tərkib hissəsi olan dilimizin tədrisi məqsədilə yaradılan dil kurslarının əhəmiyyətindən danışıb.

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev, AMEA-nın Fəlsəfə İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru, professor Sakit Hüseynov və Rus-Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Konstantin Pominov çıxışlarında milli-mənəvi dəyərlərin ictimai şüurda möhkəmlənməsində, təbliği və təşviqində dini icmaların rolu və öhdəlikləri, bu istiqamətdə onların potensialından istifadənin üstünlükləri barədə danışıb.

# Mübariz Qurbanlı:
# Konstitusiyadakı dövlət-din modeli özünü doğruldub

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Oxu.az-a müsahibə verib.***

**- Mübariz müəllim, Azərbaycanda tarixən dini tolerantlıq mühiti hökm sürsə də, müstəqillik illərində zaman-zaman bu mühitə müdaxilə cəhdləri olub, dini zəmində qarşıdurma yaratmaq niyyətləri özünü göstərib. Son zamanlar da bunun şahidi olduq. Bu baxımdan, ölkənin dini mühitini necə qiymətləndirirsiniz, Azərbaycanda dini durumla bağlı bizim bilmədiyimiz ciddi təhlükə varmı?**

- Hər bir ölkənin, xalqın bu və ya digər hadisələrə münasibətini, bu və ya digər məsələlərlə bağlı durumunu söyləmək üçün azacıq da olsa, onun tarixinə ekskurs etməyə ehtiyac var. Xüsusilə, din məsələsi ortada olduqda biz mütləq bir tarixi ekskurs etməliyik, çünki məşhur bir deyim var: haradan gəldiyinizi, harada olduğunuzu və haraya getdiyinizi dəqiq biləcəksinizsə, mütləq uğur qazanacaqsınız. Bu deyimi həm fərdlərə, həm də millətlərə şamil etmək olar. Haradan gəlirik, haradayıq və haraya gedirik: bu, çox vacib məsələdir. Azərbaycanın, Azərbaycan xalqının haradan gəldiyinə baxsaq, ilk növbədə yaşadığımız coğrafiyaya nəzər yetirməliyik. Əvvəla, bütün xalqlar, o cümlədən biz də din sahəsində müəyyən mərhələlərdən keçmişik və keçilən mərhələlərin coğrafi baxımdan fərqliliyi var. Məsələn, Avstraliyada yaşayan insanların keçdiyi mərhələləri bizim keçdiyimiz mərhələlərlə eyniləşdirə bilmərik, biz, sadəcə, ətrafımızdakı xalqlar və ölkələrlə müqayisəli şəkildə buna yanaşa bilərik. Azərbaycan ərazisində zamanında Zərdüştilik, Xristianlıq və sonra İslam geniş şəkildə yayılaraq təşəkkül tapıb. İslamın yayılmasına qədər müxtəlif dinlərin bizim ərazimizdə mövcud olmasının tarixi baxımdan təsdiqini görürük. Tarix sübut edir ki, bu ərazidə Zərdüştilik olub, Qafqaz Albaniyasında Xristianlıq olub, Şimal bölgələrinin daxil olduğu Xəzər xaqanlığında yenə üç din - Xristianlıq, Yəhudilik və İslam dini mövcud olub və bunlar izsiz qalmayıb. Biz İslamı qəbul etdikdən sonra bu dinin burada tam bərqərar olması özü bir mərhələ təşkil edib, İslam bu ərazidə olan dövlətlərin siyasətində həlledici rola malik olub.

Tutaq ki, Səfəvilər dövründə, Şirvanşahlar dönəmində və ya bu ərazidə olan başqa dövlətlərin zamanında, yaxud azərbaycanlıların böyük əksəriyyətinin məskunlaşdığı İran ərazisində, Türkiyədə İslam dini təşəkkül tapıb, oturuşub. Ancaq bizim ərazidə İslam tam təşəkkül tapıb, dövlət, ictimai münasibətlər səviyyəsində öz yerini tutduqdan sonra belə, İslamdan əvvəlki dinlərdən adət-ənənələrimizə, dünyagörüşümüzə, genetik yaddaşımıza hopmuş olan bu və ya digər hadisələr, dəyərlər yaşamaqda davam edib. Azərbaycan siyasi baxımdan müxtəlif mərhələləri keçib, bunun özü də ölkədəki ictimai, siyasi, iqtisadi vəziyyətə, o cümlədən mənəvi dəyərlərə, dinlə bağlı məsələlərə bu və ya digər formada öz təsirini saxlayıb. Bu, inkarolunmaz faktdır. Orta çağda bizə mənsub olan dövlətlərin idarəçiliyində iştirak etmişik, tam fərqli modellərlə idarə olunan dövlət qurumlarında mövcud olmuşuq. Həmçinin Şimali Azərbaycan olaraq Çar Rusiyasının tərkibində olmuşuq, xristian dininin daşıyıcısı olan bir dövlətin tərkibində uzun müddət yaşamışıq və Xristianlıqla İslamın qonşu, yanaşı yaşadığı şərait bizdə mövcud olub. Sonra Cümhuriyyət dövrü gəlir və iki illik dövlətimizin dinlə bağlı siyasəti müəyyən izlər qoyub.

Kommunist rejimi dövründə dinə münasibət, ateist siyasət, vahid kommunist ideologiyasının dini inkar etməsi, təbii ki, ictimai-siyasi və dövlət-din münasibətlərinə, o cümlədən insanların dinə münasibətinə öz təsirini göstərib. Dövlət müstəqilliyini bərpa etdikdən sonra qarşımızda duran əsas vəzifələrdən biri dövlət-din münasibətlərini formalaşdırmaq, hansı modeli seçəcəyimizi müəyyən etmək olub. Bu modeli Ümummilli Lider Heydər Əliyev öncə müəllifi olduğu Konstitusiyamızda təsbit edib ki, bu model Azərbaycanda dünyəviliyi ön plana çıxarır və Azərbaycan unitar dövlətdir. Dünyəvi dövlətin əsas xarakterik xüsusiyyəti də odur ki, din dövlət tərəfindən himayə edilir, lakin din dövlətin siyasətinə müdaxilə etmir, dövlət də dinin daxili işlərinə, dini ayinlərin icrası ilə bağlı məsələlərə, onun verəcəyi fətvalara qarışmır. Sadə şəkildə desək, qeyd edilənlər bu anlamı verir. Bu baxımdan Azərbaycan modeli İslam dünyasında ən nümunəvi və inkişafa mane olmayan, hər hansı bir formada xurafat elementlərinin yayılmasına imkan verməyən bir modeldir.

**- Hesab edirsiniz ki, xurafat elementləri İslam dünyasının, müsəlman dövlətlərinin həyatında böyük əngəllər, maneələr yaradıb və bu gün də belədir?**

- Təbii ki, İslam dünyasında inkişafa xurafat xeyli dərəcədə mane olub və olur. Yəni, xurafat elementlərinin müsəlman ölkələrində din adı altında təbliğ, təşviq olunması və ya fətvalar şəklində zühur etməsi inkişafa böyük əngəl olub. Təəssüf ki, bəzən bu hallara rast gəlinməkdədir. İndiki şəraitdə İslam dünyası İslam Əməkdaşlıq Təşkilatında (İƏT) birləşən ölkələrdir, burada 57 ölkə təmsil olunur, Azərbaycan da bu təşkilatda iştirakçıdır və həmin İslam ölkələrinin 28-nin Konstitusiyasında dövlətin hansı dinə, hətta bəzilərində hansı məzhəbə məxsus olduğu təsbit olunub. Amma Azərbaycan Konstitusiyasında ölkəmizin dini mənsubiyyəti konstitusion formada öz əksini tapmayıb. Hesab edirəm ki, bu, çox doğru yanaşmadır. Çünki Azərbaycan həm çoxmillətli, çoxkonfessiyalı, həm də çoxdilli, çoxmədəniyyətli ölkədir və belə bir ölkədə xüsusiləşmiş hansısa dinə üstünlük verilməsi məntiqli olmazdı. Bu siyasət özünü doğruldub və bu gün toplum olaraq Azərbaycanda xurafat elementləri başqa müsəlman ölkələrlə müqayisədə özünü az büruzə verir.

Azərbaycan cəmiyyəti dinimizə, islami dəyərlərimizə daim sayğı ilə yanaşıb, bu gün də belədir, lakin bununla belə, dini ayinlər, dinin vacib saydığı bu və ya digər məsələlərdə Azərbaycan toplumu ardıcıl olaraq bu işlərdə iştirak etmir.

**- Məsələn?**

- Aşağı-yuxarı faizlərlə götürsək, 7-8 faiz civarında Azərbaycan vətəndaşı dini ayinlərin icrasında iştirak edir. Bu, həm İslama, həm xristianlığa, həm də yəhudiliyə aiddir. Nə yəhudilikdə yüzdəyüz, yaxud yüzün əllisi, qırxı, nə də xristianlıqda yüzdəyüz və ya onun yarısı səviyyəsindədir. Onlarda da cəmiyyət üzvlərinin böyük olmayan kəsimi dini ayinlərin vacib olan hissəsində iştirak edir. Məsələn, İslamın vacib olan şərtləri üzrə bir sorğu aparsaq, Azərbaycan vətəndaşlarının heç də hamısın burada iştirak etmədiyini görərik. Bu, o demək deyil ki, kimsə müsəlman deyil. İnsanın dini seçimi onun vicdan azadlığına bağlıdır və o, öz seçimini öz kökünə, tarixinə, adət-ənənələrinə bağlı olaraq edir. Lakin onun dinlə bağlı bu və ya digər vacib olan ayinlərdə iştirak edib-etməməsi onu həmin dindən uzaqlaşdırmır. Bu baxımdan, bu gün Azərbaycanda dövlət-din modeli özünü doğruldan bir modeldir və ölkəmizdə dini baxımdan sabit bir vəziyyət mövcuddur. Bu gün Azərbaycan dövlət müstəqilliyini birbaşa təhdid edən riskləri, demək olar ki, aradan qaldırıb. Azərbaycan üçün iqtisadi, xarici təhlükə, xarici təcavüz baxımından müstəqilliyimizə təhdid yarada bilən risklər yoxdur, həmçinin milli-mənəvi dəyərlərimizi təhdid edərək, onu assimilyasiyaya uğradıb, aradan qaldıra biləcək hər hansı bir ciddi təhlükə yoxdur.

**- Təhdidlərin olmaması nə qədər inandırıcıdır?**



- Düzdür, təhdidlər ola bilər, bunlar istisna olunmur, amma təhlükəli səviyyədə deyil. O cümlədən, dini baxımdan da hansısa qrupların ölkədə ictimai-siyasi sabitliyi pozaraq, Azərbaycan dövləti və cəmiyyəti üçün böyük risklər yaradacaq səviyyədə təhdidlər yoxdur və bunlar mümkün deyil. Yəni, Konstitusiyamızdakı dünyəvilik və dövlət-din modeli praktikada özünü doğruldub, təhdidlərin önlənməsi və ya təhlükəli səviyyədə olmaması da məhz bunlarla bağlıdır. Azərbaycanda din sahəsinə Qafqaz Müsəlmanları İdarəsi (QMİ) nəzarət edir, bu yöndə dövlət siyasəti isə bizim Komitə tərəfindən həyata keçirilir. Bütövlükdə isə ölkənin ümumi siyasətini müəyyən edən dövlət başçısı səviyyəsində bu sahəyə diqqət var, dinin yeri qətiləşdirilib və bu gün Azərbaycanda din adı altında ölkəmiz üçün hər hansı bir təhlükə törətmək və ya din pərdəsi altında gizlənərək, milli dövlətçiliyimizi, müstəqilliyimizi təhdid etmək imkanları yox dərəcəsindədir.

**- Bununla belə, cəmiyyətin müəyyən, azlıq təşkil etməyən kəsimində belə bir fikir hakimdir ki, sovet dövründə insanlar dini baxımdan daha ayıq-sayıq, daha bilgili, cəhalət, xurafat elementlərindən daha çox uzaq idilər, nəinki indi. Yəni, son illər dinə korkoranə münasibər bəsləyənlərin, cəhalətə, xurafata yuvarlananların sayı çoxluq təşkil etməkdədir. Məsələn, bir çox bölgələrdə dini təhsilə həvəs göstərənlərin sayı dünyəvi təhsilə maraq göstərənlərin sayını üstələməkdədir. Xüsusilə, qızların dünyəvi təhsildən yayındırılaraq, dini təhsilə, əslində, dinlə əlaqəsi olmayan xurafata, cahiliyyəyə cəlb edilməsi cəhdləri özünü aşkar büruzə verməkdədir. Bu baxımdan, dünyəvi dövlət quruluşumuz təhdid, təhlükə qarşısında deyilmi və bu hansısa məqamda özünü daha aşkar, daha riskli şəkildə ortaya qoymazmı?**

- Bu fikirlərlə razı deyiləm. Çünki sovet dövründə din məişət səviyyəsinə endirilmişdi. O dövrdə İslam dini insanları yalnız dəfn etmək mərasimləri ilə məhdudlaşırdı, dini anlayış burada sona yetirdi. Sovet dövründə cəmi 17 məscid fəaliyyət göstərirdi və onların fəaliyyəti sovetlərə təbliğat vasitəsi üçün lazım idi.

Keçmiş SSRİ qapalı dövlət, qapalı sistem idi, onun vətəndaşlarının xarici ölkələrə sərbəst gediş-gəlişi faktiki mümkün deyildi. Sovet vətəndaşlarının, bəlkə də, cəmi bir faizi xarici ölkələrə gedib, gəlmişdilər. Yəni, belə bir qapalı sistemdə insanların dini bilgiləri də çox aşağı səviyyədə idi. O dövrlərdə bütün dinlər üzrə mərasimlər insanların cənazə mərasimlərinin və bir də çox məşhur bayramların, dini ayinlərin icrası ilə məhdudlaşırdı, ondan o tərəfə getmək mümkün deyildi. İndi isə müstəqil

Davamı səh. 6

# Mübariz Qurbanlı:
# Konstitusiyadakı dövlət-din modeli özünü doğruldub

Əvvəli səh. 5

Azərbaycan açıq dövlətdir, sərhədlərimiz açıqdır. Həmçinin, ətrafımızdakı ölkələrə diqqət yetirək. İran İslam Respublikasında 80 milyondan artıq insan yaşayır. Qardaş, dost Türkiyədə əhali 80 milyona yaxınlaşmaq həddindədir və bizə qonşu olan elə bu iki ölkənin əhalisinin sayı 160-165 milyona çatır. Bizim vətəndaşların ən çox gedib-gəldiyi ölkələr İran, Türkiyə və Rusiyadır. Bu gediş-gəliş, təbii ki, müxtəlif məsələlərə olduğu kimi, dini məsələlərə də təsirsiz qalmır.

Odur ki, insanların dinlə bağlı bilgilərinin artması, dini ayinlərə qatılma faizinin yüksəlməsi, 7-8 faiz civarında təşkil etməsi (sovetlər dövründə, bu, sıfırın altında idi) qorxulu, təhlükəli bir tendensiya deyil. Əgər sovetlər dövründə Məkkəyə, Həcc ziyarətinə gedənləri tək-tük, barmaqla saymaq olurdusa, bu il təkcə 1400 müsəlman Həcc ziyarətinə yola düşüb. Həmçinin, o dövrdə oruc tutan, namaz qılan və digər ayinləri yerinə yetirən insanların sayı da çox deyildi. Çünki bunun üçün şərait mövcud deyildi. Bunu icra etdirməyə qadir olan din xadimləri yox idi. Amma indi din xadimlərinin sayının artımı özünü göstərməkdədir. Məscidlərin sayı 17-dən 2500-ə çatıb. İnsanların azad şəkildə kilsəyə, sinaqoqa, məscidə getməsi üçün hər cür şərait mövcuddur. Xurafat elementlərinə, cahiliyyəyə gəlincə, əgər bu elementlər falçıların yanına getməklə ölçülürsə, sovet dövründə falçıların yanına gedənlərin sayı indikindən qat-qat çox idi. Sovetlər dövründə dini bilgisizlik dinlə bağlı cəhalət, xurafat elementlərini daha qabarıq şəkildə büruzə verirdi, nəinki bu gün...

**- Hər halda təəssüf doğran məqam odur ki, hələ də dünyəvi ölkəmizdə belə elementlər, onların daşıyıcıları mövcud olmaqdadır...**

- Əlbəttə, bu günün özündə xurafat və cəhalət elementləri müəyyən hallarda özünü göstərir, amma bu, təhlükə, təşviş doğuracaq bir səviyyədə deyil. Məsələn, İmam Hüseyn əzadarlığında müxtəlif qançıxarma, zəncirvurma, baş yarma və sair kimi hallar hələ də mövcuddur və bunlar, əslində, dinimizdə qəbul edilməyən hallardır. QMİ də bununla bağlı fitva verib, yəni, bunun əvəzində qanvermə aksiyaları təşkil edib. Bu gün Türkiyədə, İranda da bu praktikanı tətbiq etməyə başlayıblar. Ona görə dini ayinlər üzrə imkanların artması dini toplumun və onun içərisində isə xurafat elementlərinin artımını qabarıq göstərir.

Eyni zamanda, sovet dövründə KİV indiki qədər operativ deyildi. İndi dünyanın hansı guşəsində nə baş verirsə, dərhal onu izləyə, o haqda geniş məlumat ala bilirik. Məsələn, bir yoldaş bir gün mənə dedi ki, elə bil zəlzələlər, daşqınlar əvvəllər az idi, mən isə cavab verdim ki, elə əvvəllər də indiki kimi idi, sadəcə, əvvəllər məlumat az idi. Həmin hadisələr o zamanlar da mövcud idi, biz, sadəcə, gec xəbər tuturduq və ya tutmurduq. İndi isə dünyada elm, yüksək texnologiyalar dövrüdür və dünyanın istənilən yerində baş verən hadisəni anında bilmək, izləmək olur. Sovet dövründə məlumatların gizlədilməsi halları da vardı. Yəni, o dövrdə baş verən daşqınların, təbii fəlakətlərin çoxu insanlardan gizlədilirdi. Əslində, sizin sual geniş izahat, təhlil tələb edir, geniş təhlillər aparılmadan bunlara cavab vermək doğru olmaz. Amma bizim də müəyyən qədər təhlillərimiz, məscidlərdə apardığımız monitorinqlərin nəticələri var. Bunun hesabına müəyyən nəticələr əldə edə bilirik. Məsələn, sovet dövründə məscidlərə namaz qılmağa gələn insanların sayı ilə indikilərin arasında böyük fərq var. Buna görə də bəzən cəmiyyətdə zahirən belə bir görüntü yaranır ki, sanki dindarlığın səviyyəsi artıb və sair.

Əvvəla, dinə meyillilikdən qorxmaq lazım deyil. İnsanların dini bilgisinin artması, dini ayinləri icra etməsi hər hansı bir halda xurafat elementi deyil. İnsanların namaz qılması, oruc tutması, ziyarətə getməsində təhlükəli bir hal yoxdur. Qorxulu odur ki, kimlərsə dini siyasiləşdirmək, kimlərsə din adı altında öz mənhus məqsədlərinə çatmaq istəyir. Kimlərsə din adı altında gəncləri yoldan çıxarıb, onları zombiləşdirir və onlardan istifadə edərək, müxtəlif təxribatları, müəyyən faicələri törədir. Yaxın Şərq ölkələrindəki hadisələr bunu bir daha göz önünə gətirir və bir daha buna qiymət verir ki, bu cür hallar nəyin nəticəsində olub. Bunlar dinin siyasiləşdirilməsinin, din adı altında gizlənən qrupların öz məqsədlərinə çatmasının, terror əməlləri törətməsinin nəticəsidir. Odur ki, Azərbaycanda din üzrə məsələlərdə cəhalət və xurafatın artması məsələsi yox, sadəcə, din üzrə imkanların, ayinlərdə iştirak edənlərin sayının artması var. Amma bütövlükdə dini maarifləndirmə işinin həm bizim Komitə tərəfindən, həm digər qurumlar, o cümlədən, QMİ tərəfindən aparılması bizi bu cür geriləmələrdən qoruyur, qoruyacaq və qorumalıdır.

Bizdə İlahiyyat İnstitutu təsis olunub, bu il növbəti qəbul keçirilib və əminəm ki, bu elm ocağının hazırladığı kadrlar növbəti mərhələlərdə məscidlərdə çalışanda bu məsələləri daha gözəl izah edəcəklər.

Bu günün özündə də bizim məscidlərdə çox qabaqcıl düşüncəyə malik, müasir dünyamızda gedən prosesləri mükəmməl bilən, elmlə dinin qarşılıqlı əlaqəsini gözəl anlayan, tolerant və multikultural dəyərləri, Azərbaycançılıq ideologiyasını mənimsəyən imamlarımız var. Onların xütbələrinə qulaq asdıqda həmin şəxslərin nə qədər dərin biliyə malik olduğunu görə bilirik. Amma bəzi çatışmazlıqlar hələ də qalır və bir çox məsələlər var ki, biz onları yerinə yetirməliyik.

**- Qarşıdan Məhərrəm ayı, Aşura gəlir. Bildiyiniz kimi, bəzən bu mərasimlərdən öz məqsədləri, maraqları üçün istifadə etməyə, ölkədəki dini mühiti, bütövlükdə cəmiyyəti gərginləşdirməyə cəhd edən qüvvələr olur. Bu il bu məsələdə vəziyyət necədir, hansısa xoşagəlməz hallar baş verə bilərmi, bu barədə sizə hansısa siqnallar daxil olubmu?**

- Bilirsiniz, vaxtilə Azərbaycan ərazisində Məhərrəmlik mərasimləri teatrlaşdırılmış səhnələr formasında həyata keçirilib. Hətta Kərbəla çölünə oxşar səhnələr quraraq, orada məxsusi olaraq, Kərbəla hadisələrinin elementlərini təkrar etmək səviyyəsində mərasimlər keçirilib və bu mərasimlər günlərlə davam edib. Sovetlərdən əvvəl də, sovet dönəmində də bu cür mərasimlərə cəhdlər olub. Hətta sovet dönəminin ideoloji baxımdan ən kəskin dövründə dinə təzyiqlər göstərildiyi, ateizmin tüğyan etdiyi vaxtlarda belə, bu cür cəhdlər olub. "Əli və Nino" romanında Əlinin Bakıda Məhərrəm ayında səhnələşdirilmiş tədbirdə iştirakı təsvir olunur, hətta Nino Əliyə deyir ki, səni gördüm, sən orada mərasimə qatılmışdın, qabaqda dayanmışdın, Kərbəla hadisəsinin hansısa iştirakçısı rolunu oynayırdın və sairə. Əlbəttə, bu, bir teatr deyildi, buna şərti teatrlaşdırılmış səhnələr deyirik, şəbeh formasında olan məsələlərdir. Məsələn, Kərbəla düzündə baş vermiş hadisəni bir növ təkrar etmək, uşaqları susuz saxlamaq kimi səhnələr icra olunurdu. Hətta heç kim Yezid olmaq istəmirdi. Azərbaycan müsəlman dünyasının bir parçasıdır, Azərbaycanda İslamın oturuşmuş məzhəbləri formalaşıb, heç kim bunları inkar edə bilməz. Azərbaycanın bir özəlliyi də odur ki, ölkəmizdə məzhəblərarası ziddiyyət başqa müsəlman ölkələri ilə müqayisədə çox aşağı səviyyədə olub və heç vaxt üst qata çıxmayıb, heç vaxt qarşıdurma səviyyəsinə qalxmayıb.

Biz "Vəhdət" adlı film sifariş vermişik, bu yaxınlarda onu geniş ictimaiyyətə təqdim edəcəyik. Həmin "Vəhdət" filmində də tarixə ekskursiya olunur. Azərbaycanda əhli-sünnə, əhli-şiənin necə birgə tolerant mühitdə yaşadığını, "Vəhdət"də olduğunu göstərir. Eyni zamanda, bizdə "Vəhdət" namazları qılınır, Heydər məscidindən başlayaraq, digər məscidlərdə bu namazlar icra olunur. Azərbaycanın özəlliklərindən biri də odur ki, biz bu məzhəblərin bir-birinə qarşı olmasını müşahidə etməmişik. Azərbaycanda əhlisünnənin əksəriyyət təşkil etdiyi bölgələrdə belə, İmam Hüseyn əzadarlığı həyata keçirilib. Əhli-şiələrin yaşadığı bölgələrlə bərabər onlar da bu əzadarlıqda iştirak ediblər, edirlər.

Bununla belə, İmam Hüseynin şəhadəti bu gün tək İslam aləmində deyil, dünyada qəbul olunmuş bir şəhadətdir. Yəni, öz əqidəsi, öz amalları uğrunda mübarizə aparan bir şəxsin şəhadəti nümunə olaraq qeyd edilir, təqdir olunur. İmam Hüseyn şəhadəti öz müstəqilliyi, öz azadlığı uğrunda mübarizə aparan əsgərə, xalqa da bir nümunədir. Ona görə İmam Hüseyn şəhadəti haqqında məscidlərdə danışılanda, moizələr söylənəndə bizim imamlarımız mütləq orada bu şəhadətin zirvəsini qeyd etməklə bərabər, vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizi də yad edir, onların bu cür şəhadətə qovuşduğunu bildirirlər. Yəni, artıq dövr dəyişdikcə, fərqli yanaşmalar yaranır. İndi şəbeh çıxarmaq, Kərbəla hadisələrinə həsr olunmuş səhnələr göstərmək, bunlar artıq zamanın gerisində qalıb. Bəli, müasir dövrümüzdə İmam Hüseyn əzadarlığı qeyd olunur, yəni, şiələrin olduğu ölkələrdə bunlar müxtəlif şəkildə qeyd edilir və bu, onların öz daxili işidir. Amma əsas odur ki, İmam Hüseyn şəhadəti yad edilir. Bunu yad etmək üçün isə indi heç də Kərbəla hadisələrini hansısa şəbeh formasında təkrar etməyə ehtiyac yoxdur. Onu yad edərkən, İmam Hüseyn şəhadətini, onun qəhrəmanlığını göstərib, ondan ibrət dərsi, nümunə götürmək olar və lazımdır. Yoxsa, baş yarmaq, qan çıxarmaq, zəncir vurmaq düzgün deyil. Bunlar xurafat elementləridir və çox aləmətdar haldır ki, artıq bəzi tək-tük faktları nəzərə almasaq, son illər Azərbaycanda belə hallara yol verənlər yoxdur.

**- Bu yöndə statistika varmı, statistika nəyi göstərir?**

- Komitədə ötən ilin məlumatları var və demək olar ki, heç bir məsciddə qançıxarma, baş yarmaq, zəncirvurma halları (cüzi istisnalarla) qeydə alınmayıb. Bəli, müəyyən dərəcədə sinə döymə, ağı demə məqamları var ki, onlar da artıq fərqli çalar almaqdadır. Yəni, insanlar artıq könüllü şəkildə anlayır ki, belə hərəkətlərin dinə heç bir aidiyyəti yoxdur. Artıq Məhərrəm ayında, Aşurada qanvermə aksiyalarında iştirak edən vətəndaşlarımızın, inanclı insanlarımızın sayı artmaqdadır. Bununla yanaşı, bəzən hələ də belə hallara rast gəlinir ki, xanımlarımız məscidlərə gələrkən özləri ilə azyaşlı uşaqları da gətirirlər. Əslində, onların oraya gətirilməsinə ehtiyac yoxdur, çünki orada çox zaman sıxlıq, qələbəlik olur, yəni, ora uşaqların yeri deyil. Və yaxud da, görürsən ki, azyaşlı uşaqların başını bağlayırlar, dini paltarlar geyindirirlər, onların fotolarını yayırlar. Axı, bunlara nə ehtiyac var? Bunları reklam etməklə nə demək istəyirlər? İslam yeganə dindir ki, orada Allahla bəndəsi arasında vasitəçiyə ehtiyac qalmır, Allahla bəndəsi özü birbaşa təmas qura bilir. Belə olan halda, İslamdan, onun buyuruqlarından kənara çıxmaq nəyə lazımdır? Hər bir kəsin inancı, namaz qılması, oruc tutması, dini ayinləri icra etməsi onun öz şəxsi seçimidir. Kimsə kiməsə yön verə bilməz. Onu reklam etməyə, qabartmağa nə ehtiyac var? Bəzən bunları anlamaq olmur. Amma hesab edirəm ki, bunlar da zamanzaman öz yoluna, axarına düşəcək.

Eyni zamanda, kimlərsə artıq İmam Hüseyn əzadarlığı ilə bağlı mərasimlərdən öz niyyətlərini həyata keçirmək üçün istifadə edə bilməyəcəklər. Artıq, bu, mümkün deyil. Bu baxımdan, hər zaman olduğu kimi, bu il də Məhərrəm ayı, İmam Hüseyn əzadarlığı çox sakit bir şəkildə baş tutacaq, hansısa təhlükəli məqam yaşanmayacaq. Buna elə ilk növbədə inanclı insanlarımız özü yol verməyəcək.

# SƏYYAD SALAHLI: RESPUBLİKAMIZ BÜTÜN DÜNYADA TOLERANTLIĞIN, BİRLİYİN VƏ QARDAŞLIĞIN QORUNUB SAXLANDIĞI NADİR ÖLKƏLƏRDƏNDİR



Avqustun 30-da Siyəzəndə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Siyəzən Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda ikigünlük seminar-müşavirə öz işinə başlayıb.

Tədbirdə din xadimləri, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Siyəzən RİH başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Balabəy Balabəyov rayondakı dini durum və dini icmaların fəaliyyəti haqqında geniş məlumat verib. Bildirib ki, dini radikalizmlə mübarizə müasir dövrün ən mühüm məsələlərindəndir və Dövlət Komitəsinin keçirdiyi maarifləndirmə istiqamətli bu kimi seminar-müşavirələr alqışa layiqdir. O, diqqətə çatdırıb ki, Azərbaycanda qəbul edilmiş qanunlar, hüquqi normativ aktlar dinindən və məzhəbindən asılı olmayaraq hər kəsin vicdan azadlığını tam təmin edir.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizdəki dini durumla bağlı geniş məruzə ilə çıxış edib. Qeyd edib ki, əsası Ulu Öndər Heydər Əliyevin qoyduğu dövlət-din münasibətləri modelinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün respublikamız bütün dünyada tolerantlığın, birliyin və qardaşlığın qorunub saxlandığı nadir ölkələrdən birinə çevrilib. Bütün dinlərə məxsus abidələr təmir olunur, bərpa edilir və bu işdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da yaxından iştirak edir.

Dini radikalizm, onunla mübarizə metodları haqqında da danışan S.Salahlı bildirib ki, Dövlət Komitəsinin keçirdiyi bu cür tədbirlər cəmiyyətdə dini bilgilərin artırılması baxımından çox əhəmiyyətlidir. Milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılması, milli-dini dözümlülük, tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsi, o cümlədən dini radikalizm və dini ekstremizm kimi mənfi tendensiyalarla mübarizədə ən effektli yollardan biri maarifləndirmədir. Bu mənada dini icmaların da üzərinə böyük vəzifə və məsuliyyət düşür. Din xadimlərimiz dini radikalizmə, xurafata gətirib çıxaran məsələlərin qarşısını almaqla yanaşı, gənc nəsli milli-mənəvi dəyərlərə hörmət və ehtiram ruhunda yetişməsində fəal olmalıdırlar. Çünki ölkəmizdəki sabitliyi, dincliyi, dünya miqyasında qazandığımız uğurları heç cür qəbul edə bilməyən müəyyən dairələr gecə-gündüz fəaliyyətdədirlər və onların əsas hədəfi milli-dini zəmində ayrı-seçkilik yaratmaq, gənclərimizi də bu məkrli planlarına alət etməkdir. Ötən əsrin 90-cı illərində həmin qüvvələrin milli zəmində salmaq istədikləri qarşıdurmanı xalqımız öz müdrik oğlu Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin ətrafında sıx birləşməklə dəf etdi. Buna görə də indi pozuculuq fəaliyyətlərini dini sahəyə istiqamətləndiriblər. Bu, həm də Yaxın və Orta Şərqdə sınaqdan "uğurla" çıxardıqları variantdır. Ancaq biz dünyanın bir çox ölkəsinin əziyyət çəkdiyi dini ekstremizmin, dini radikalizmin Azərbaycana ayaq açmasına imkan verməməliyik.

QMİ-nin Şabran bölgə qazısı Cavanşir Əfəndiyev Azərbaycan dövlətinin din siyasətinin uğurlarından danışıb. Qeyd edib ki, dindarlarımız dövlətimizin başçısının diqqət və qayğısını daim hiss edirlər.

**Seminar-müşavirə öz işini növbəti gün davam etdirib.**

Rayonun fəal gəncləri, müəllimləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi seminar-müşavirənin ikinci günündə öncə DQİDK-nın sifarişi ilə çəkilmiş dini radikalizm və terrorizmin fəsadlarından bəhs edən "Üfüqdəki gələcək" sənədli filmi nümayiş etdirilib.

Seminar-müşavirəni giriş sözü ilə açan Siyəzən RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Balabəy Balabəyov mövzunun aktuallığından danışaraq bildirib ki, rayon gəncliyi ölkə rəhbərliyinin bütün sahələr, o cümlədən din sahəsi üzrə siyasətini daim dəstəkləyib.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxışına respublikamızın son illər qazandığı uğurlar haqqında geniş məruzə etməklə başlayıb. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti milli-mənəvi dəyərlərimizin qorunaraq gələcək nəsillərə ötürülməsinə, gənclərin məhz bu ruhda, vətənpərvərlik ruhunda yetişdirilməsinə hesablanmışdı. Bu nümunəvi siyasətin dövlət başçımız İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin, dövlət-din münasibətlərinin möhkəm bünövrə üzərində formalaşdırılmasının nəticəsidir ki, bu gün respublikamızda bütün sahələrdə, o cümlədən din sahəsində sabitlik mövcuddur. Milli-mənəvi dəyərlərimizin gənclərin tərbiyəsində vazkeçilməz elementlərdən olduğunu vurğulayan S.Salahlı dini radikalizm, ekstremizm, fanatizm və mövhumat kimi mənfi tendensiyaların təsirinə düşməmək üçün elmə, təhsilə yönəlməyi tövsiyə edib.



Daha sonra çıxış edən Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin əməkdaşı Bəhruz Orucov dini radikalizm və dini ekstremizmin yaranma tarixindən, bu mənfi tendensiyanın yayılma arealından, həmçinin səbəblərindən geniş danışıb.

DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev Azərbaycandakı və bölgədəki dini durum haqqında danışıb.

Seminar-müşavirə iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

# Şəmkir sərhəd dəstəsində hərbi vətənpərvərlik mövzusunda tədbir keçirilib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Dövlət Sərhəd Xidmətinin birgə təşkilatçılığı ilə Tədbirlər Planına uyğun olaraq Şəmkir sərhəd dəstəsində "Hərbi vətənpərvərlik: silahlı qüvvələrimiz və milli-mənəvi dəyərlərimiz" mövzusunda seminar keçirilib. Seminardan öncə iştirakçılar hərbi hissədə Heydər Əliyev İdeoloji Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən zəngin foto-ekspozisiya ilə tanış olublar.

Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbirdə Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov bu cür seminarların keçirilməsində əsas məqsədin ölkəmizdə vətənpərvər və sağlam düşüncəli gənclər yetişdirmək, onları Vətənə hədsiz məhəbbət, xalqının tarixinə, mədəniyyətinə və milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə etmək, eləcə də dini fanatizm, dini radikalizm və dini ekstermizm meyillərinə qarşı mübarizə aparmaq olduğunu bildirib.

Sədr müavini vətənpərvərliyin gücləndirilməsində milli-mənəvi dəyərlərin özünəməxsus rolu olduğunu, DQİDK-nın bu istiqamətdə müvafiq dövlət orqanları ilə sıx əməkdaşlıq etdiyini, bütün hərbi hissələrdə maarifləndirici tədbirlərin keçirildiyini qeyd edib.

Tədbirdə yaradılmasının 100 illiyini bu yaxınlarda qeyd etdiyimiz, ən müasir silah və texnikaya malik olan Azərbaycan Silahlı Qüvvələrinin dünyanın ən qabaqcıl ordularından birinə çevrildiyi, 2018-ci il iyun ayının 26-da "Azadlıq" meydanında yüksək təntənə ilə keçirilən möhtəşəm hərbi paradda respublikamızın hərbi qüdrətinin bütün dünyaya bir daha nümayiş olunduğu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında işğal altında olan torpaqlarımızı mənfur düşmənlərdən azad etməyə hər an hazır olduğumuz qürurla vurğulanıb.

Çıxış edənlər Ulu Öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətlərini, böyük dövlət xadiminin müəyyənləşdirdiyi strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırıldığını xüsusi qeyd ediblər.

Seminarda dini amillərdən istifadə edərək radikallığa cəhd göstərən qüvvələrə qarşı mübarizədə hamının, xüsusən gənc nəslin sayıqlıq göstərməsinin zəruriliyi diqqətə çatdırılıb.

Tədbirin sonunda Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

# Səyyad Salahlı: İşğal olunmuş ərazilərimizdə Azərbaycanın tarixi abidələrinə qarşı vandalizmə son qoyulmasını tələb edirik



Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Azərbaycanın Ermənistan qoşunları tərəfindən işğal olunmuş Şuşa şəhərində yerləşən "Yuxarı Gövhər ağa" məscidinin tarixi mahiyyətinin Ermənistan hakimiyyəti tərəfindən saxtalaşdırılmasına etirazını bildirib. O qeyd edib ki, artıq 30 ildir Azərbaycan xalqına qarşı davam edən Ermənistan təcavüzünün qurbanları təkcə soydaşlarımız deyil, həm də yaşı minillərlə ölçülən tarixi, dini və mədəni abidələrimiz, eləcə də müqəddəs ocaqlarımız və məbədlərimiz olub. Bu gün Ermənistan təcavüzünün qurbanı olan tarixi, dini-mədəni abidələrimizin ümumi sayını müəyyənləşdirmək və onlar barədə tam məlumatı vermək qeyri-mümkündür. Çünki XIX əsrdən etibarən Qarabağa və Qərbi Azərbaycan ərazilərinə köçürülən ermənilər təkcə azərbaycanlıların torpaqlarını ələ keçirməyib, eyni zamanda orada yaşayan soydaşlarımızı yerindən-yurdundan qovub çıxarıb, buradakı maddi-mədəniyyət nümunələrini tarix səhnəsindən məqsədli şəkildə silib yox ediblər. Azərbaycanın tarixi mədəni irsinə qarşı təcavüz geniş vüsət almaqdadır.

Səyyad Salahlı deyib ki, işğal altındakı torpaqlarımızda tərəfimizdən təsbit olunmuş tarixi-dini abidələrin sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si ziyarətgahdır: "Ermənilərin tarixi-dini abidələrimizə qarşı vəhşi davranışı müxtəlif istiqamətlərdə aparılır. Bir çox qədim milli, dini ənənəni özündə ehtiva edən abidələr tamami ilə dağıdılıb. Bu abidələrin erməniləşdirilərək özününküləşdirilməsinə cəhd edilir. İşğal altındakı müsəlman dini kimliyinə aid abidələr, o cümlədən digər mədəniyyət göstəriciləri dağıdılır, təhqir olunur. Son illər məscidlərdə mal-qara və digər heyvanların saxlanılması faktı Qərb ölkələrinin fotomüxbirləri tərəfindən də lentə alınıb və bütün dünya ictimaiyyəti bu kadrlarla tanış olub. Ermənistan təcavüzünə məruz qalmış İslam mədəniyyətinə dair tarixi-dini abidələrdən biri də Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Şuşa şəhərində yerləşən "Yuxarı Gövhər ağa" məscididir. Şuşa şəhərinin işğalı zamanı həmin məscid topa tutulub və minarələri dağıdılıb. 8 may 1992-ci ildən bugünədək məscid dağıdılmış vəziyyətdədir. Ermənilər bununla kifayətlənməyərək bu məscidin farslara aidliyi barədə avantürist addım atmaqdalar. Çox təəssüf ki, bu erməni saxtakarlığına qonşu İranda da dəstək verənlər tapılır. Bu tarixi abidənin də Azərbaycan xalqına aid olmadığı iddiaları ortaya çıxır. Bundan bir neçə il əvvəl İrəvan şəhərindəki 1990-cı ildə ermənilər tərəfindən yandırılmış "Göy Məscid" İran İslam Respulikası tərəfindən təmir edildikdən sonra "Fars məscidi" olaraq qələmə verilir".

Dövlət Komitəsi sədrinin birinci müavini vurğulayıb ki, "Yuxarı Gövhər ağa" məscidi 1883-1884-cü illərdə İbrahimxəlil xanın qızı Gövhər ağanın tapşırığı ilə memar Kərbəlayı Səfixan Sultanhüseyn oğlu Qarabagi tərəfindən inşa edilib. İndiki məscidin yerində hələ Pənahəli xanın dövründə qarğı və qamışdan bir məscid tikilmişdi. Pənahəli xanın tikdirdiyi qarğı məscid 1768-ci ildə İbrahimxəlil xan tərəfindən daşla əvəz edilmişdi. Həmin məscid də minarəsiz, kasıb görünüşə malik idi. Görünür ki, elə məscidin bu görünüşü Gövhər ağanı qane etməyib və buna görə həmin məscidi tamamilə söküb, yerində qoşa minarəsi olan yeni bir məscid tikdirmişdi. Lakin bu məscid də Gövhər ağanın göstərişi ilə sökülmüş və yerində müasir dövrümüzə qədər gəlib çatmış "Yuxarı Gövhər ağa" məscidi kimi tanınan həmin bina inşa edilmişdi. Gövhər ağa XIX əsrin 3-cü rübündə Şuşada məscid inşa etdirmişdi ki, bu, indi "Aşağı Gövhər ağa məscidi" adlanır.

"2001-ci ildə UNESCO-nun Ümumdünya İrsi Obyektlərinin siyahısına salınan Şuşa tarixi şəhərindəki "Yuxarı Gövhər ağa" məscidi üzərində yerləşən və Azərbaycan dilində yazılmış lövhə ermənilər tərəfindən sökülüb, əvəzində erməni dilində "Qədim tarixi abidə,Yuxarı Məscid, 1883, dövlət tərəfindən qorunur" sözlərini əks etdirən lövhə asılıb. Əvvəlki Azərbaycan dilində üzərində yazı olan lövhədə qeyd olunmuş "Gövhər ağa" sözləri məqsədli şəkildə yeni asılmış lövhədə qeyd edilməyib" – deyən S.Salahlı bildirib ki, bununla Ermənistan hakimiyyəti Azərbaycanın işğal olunmuş ərazisində yerləşən tarixi-dini abidələrin mahiyyətinin dəyişdirilməsinə, saxta erməni tarixinin yaradılmasına cəhd edir.

Bütün dinlərdə məbəd dağıtmağın böyük günah hesab edildiyini diqqətə çatdıran S.Salahlı qeyd edib ki, ermənilər Tanrı məbədini dağıtmaqla xristian ehkamlarını da pozmaqdan çəkinmirlər. İncildə: "Kim Allahın məbədini məhv edirsə, Allah onu məhv edəcək, çünki Allahın məbədi müqəddəsdir..." (İncil, Korinflilərə I məktub, 3/17). Eyni zamanda, Qurani-Kərimin "Bəqərə" surəsinin 114-cü ayəsində buyrulur: "Allahın məscidlərində Onun (Allahın) adının çəkilməsinə maneçilik törədənlərdən və onların xarab edilməsinə (dağılmasına) çalışanlardan daha zalım kim ola bilər? Halbuki onlar oraya (məscidlərə) ancaq qorxa-qorxa girməli idilər. Onları dünyada rüsvayçılıq, axirətdə isə böyük əzab gözləyir!"

Komitə sədrinin birinci müavini deyib ki, ermənilərin işğal olunmuş Azərbaycan torpaqlarında tarixi-dini abidələrimizə qarşı saxtakarlıq və cinayət əməlləri beynəlxalq səviyyədə təsbit olunmuş "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasının və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir: "Əlbəttə, biz beynəlxalq ictimaiyyətin Azərbaycan üçün həyati əhəmiyyət daşıyan bu məsələyə biganə qalmasını mümkünsüz sayırıq. Bir çoxlarına artıq bəllidir ki, işğala məruz qalan ölkə Azərbaycandır. Münaqişə 30 ildir davam edir, ərazisinin 20 faizi işğal altındadır, bir milyondan çox Azərbaycan vətəndaşı öz ölkəsində qaçqın və məcburi köçkün vəziyyətindədir. Belə bir vəziyyətdə beynəlxalq ictimaiyyətin işğalçı Ermənistan hakimiyyətinin tarixi saxtalaşdırmaq əməllərinin qarşısının alınmasında ədalətli mövqe nümayiş etdirəcəyinə inanır, "Yuxarı Gövhər ağa" məscidinin tarixi əhəmiyyətini göstərən yazı və lövhələrin sökülərək erməni dilində yazı və lövhə ilə əvəzlənməsinin dərhal dayandırılmasını, Şuşa və Dağlıq Qarabağın digər yerlərində Azərbaycanın tarixi abidələrinə qarşı vandalizmə son qoyulmasını tələb edirik", - deyə sonda Səyyad Salahlı bildirib.

Qeyd edək ki, "Yuxarı Gövhər ağa" məscidinin tarixinin ermənilər tərəfindən saxtalaşdırılmasına DQİDK tərəfindən aidiyyəti beynəlxalq təşkilatlara etiraz məktubu göndərilib.

# «DİNİ EKSTREMİZMİN TƏZAHÜR FORMALARI VƏ ONA QARŞI MÜBARİZƏNİN HÜQUQİ ƏSASLARI» MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

Avqustun 2-də Dövlət Sərhəd Xidməti (DSX) ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə Tədbirlər Planına uyğun olaraq DSX-nın Sahil Mühafizəsində "Dini ekstremizmin təzahür formaları və ona qarşı mübarizənin hüquqi əsasları" mövzusunda tədbir keçirilib.

Zabit və sərhədçilərin iştirak etdiyi tədbirdə öncə DQİDK-nın sifarişi ilə çəkilən "Şəhadət" sənədli filmi nümayiş olunub.

Daha sonra çıxış edən Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov əsası Ulu Öndər tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin tənzimlənməsi və təkmilləşdirilməsi ilə əlaqədar hökumətin həyata keçirdiyi tədbirlərin müsbət nəticələrindən, gənclər arasında aparılan maarifləndirmə işinin effektivliyinin artırılmasından danışıb. S.Heydərov bildirib ki, "Dini etiqad azadlığı haqqında" Qanuna əlavə və dəyişikliklərin edilməsi, Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən din xadimlərinə maddi dəstəyin göstərilməsi, eləcə də din sahəsində milli kadrların hazırlanması məqsədi ilə Azərbaycan İlahiyyat İnstitutunun yaradılması bu istiqamətdə görülmüş işlərin bariz nümunəsidir.

Natiq, eyni zamanda hərbi vətənpərvərliyin gücləndirilməsində milli-mənəvi dəyərlərin rolundan bəhs edib. Dini radikalizmə qarşı mübarizədə maarifçiliyin əsas silah olduğunu vurğulayan S.Heydərov DQİDK-nın bu istiqamətdə müvafiq dövlət orqanları ilə sıx əməkdaşlıq etdiyini, hüquqi və ideoloji müstəvidə mübarizə aparıldığını diqqətə çatdırıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ictimai-siyasi sabitliyin mövcud olduğunu söyləyən S.Heydərov xarici dairələr tərəfindən Azərbaycanda mövcud sabitliyi pozmaq cəhdlərinin olduğunu deyib. Vurğulayıb ki, Gəncədə baş verən son hadisələr yad dini ideologiyaların təsirinə düşmüş şəxslər tərəfindən törədilib. Sədr müavini gəncləri yad ideyalardan qorunmaları üçün müvafiq icazəsi olmayan ədəbiyyatlardan istifadə etməməyə çağırıb.

"Şəhadət" sənədli filminin əhəmiyyətindən də danışan natiq deyib ki, bu film Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsinə həsr olunub. Vurğulayıb ki, filmdə Vətənin müqəddəsliyi və onun müdafiəsinin vacibliyi, şəhidlik zirvəsinin ucalığı təbliğ olunur, digər tərəfdən isə radikalizmin törətdiyi fəsadlar tamaşaçılara təqdim edilir.

Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin rəisi, general-mayor Əfqan Nağıyev isə çıxışında bu cür tədbirlərin keçirilməsini yüksək qiymətləndirib. Ə.Nağıyev, eyni zamanda dini amillərdən yararlanaraq radikallığa cəhd göstərən qüvvələrə qarşı mübarizədə hamının sayıqlıq göstərməsinin zəruriliyini qeyd edib.

# DİNİ TƏHLÜKƏSİZLİK OLMADAN MİLLİ TƏHLÜKƏSİZLİYİ TƏMİN ETMƏK QEYRİ-MÜMKÜNDÜR

Azərbaycan dünyəvilik prinsiplərinə əsaslanmaqla milli-mənəvi, multikultural və ənənəvi İslam dəyərlərini qoruyur və inkişaf etdirir. Azərbaycan dövləti multikulturalizmi və dini tolerantlığı dövlət siyasətinə çevirməklə bu şəraiti ölkəmizdə nümunəvi şəkildə formalaşdırmağı bacarıb.

Bu barədə avqustun 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Quba şəhərində "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri - dini radikalizm" mövzusunda keçirilən seminar-müşavirədə bəhs olunub.




Tədbirdə Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və DQİDK-nın məsul işçiləri, bu qurumların Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarındakı yerli strukturlarının nümayəndələri, prokurorlar, ziyalılar və dindarlar iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzülüb, xatirəsi ehtiramla anılıb.

Seminar-müşavirədə DQİDK-nın sifarişi ilə çəkilmiş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

Tədbirdə çıxış edən Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev ölkəmizdə yaşayan müxtəlif din və məzhəblərin nümayəndələrinə qayğı ilə yanaşıldığını, onların problemlərinin həllinin Azərbaycan hökumətinin din siyasətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edib. Z.Əliyev bildirib ki, ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlik, əmin-amanlıq, dövlət-din münasibətlərinin sağlam şəkildə qurulması, multikultural və tolerant dəyərlər dünya üçün örnəkdir.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov tədbirdə nümayiş etdirilən "Şəhadət" filmi barədə danışıb. S.Heydərov deyib ki, filmdə Vətənin müqəddəsliyi, onun müdafiəsinin vacibliyi, şəhidlik zirvəsinin ucalığı təbliğ olunur, digər tərəfdən isə radikalizmin törətdiyi fəsadlar tamaşaçılara təqdim edilir.

Radikalizmə və ekstremizmə qarşı mübarizənin hüquqi əsasları barədə danışan Komitə sədrinin müavini vurğulayıb ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan milli təhlükəsizlik konsepsiyasının başlıca komponentlərindən biri məhz dini təhlükəsizlikdir. Yaxın Şərq təcrübəsi və orada hazırda davam edən proseslər bir daha açıq şəkildə göstərir ki, dini təhlükəsizlik olmadan milli təhlükəsizliyi təmin etmək qeyri-mümkündür.

Sədr müavini diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan regionda mövcud olan təhdidlərə, müxtəlif səpkili təzyiqlərə, yad dini ideologiyaların idxal edilməsi cəhdlərinə baxmayaraq, güclü siyasi iradə nümayiş etdirərək dini təhlükəsizliyi təmin edib və bu siyasətin hazırkı dövrdə davam etdirilməsi olduqca vacibdir.

Tədbirdə, həmçinin Baş Prokurorluğun nümayəndəsi Namiq Muradov müvafiq sahə üzrə qanunvericiliyə diqqət çəkərək, dini radikalizm və ekstremizm probleminə qarşı mübarizənin hüquqi əsasları barədə geniş məlumat verib. "Dini ekstremizmə qarşı mübarizə haqqında" Qanunun qəbul olunduğunu deyən N.Muradov, eyni zamanda dini ekstremizmə qarşı mübarizənin məqsədləri və əsas prinsipləri haqqında danışıb.

Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev dini radikalizm və ekstremizmə qarşı mübarizə çərçivəsində ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə daxili işlər orqanlarının fəaliyyətinin əsas istiqamətlərindən danışıb, təmsil etdiyi qurumun müvafiq sahədə həyata keçirdiyi profilaktik və inzibati tədbirlərdən söz açıb.

Daha sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə qazısı Naib Səttərov bildirib ki, bölgədə dini durum sabitdir. O qeyd edib ki, dini etiqad azadlığının təmin olunması, bölgədə dini icmalar arasında qarşılıqlı əlaqələrin yüksək səviyyədə qurulması üçün lazımi tədbirlər həyata keçirilir.

Seminar-müşavirə mövzu ətrafında fikir mübadiləsi ilə davam edib.

# «ƏSAS VƏZİFƏMİZ VƏTƏNDAŞLARIMIZI, XÜSUSİLƏ GƏNCLƏRİMİZİ YAD DİNİ İDEOLOGİYALARIN TƏSİRİNDƏN QORUMAQDIR»



Azərbaycanda ekstremizmin sosial bazasının formalaşması üçün onun dayağı yoxdur. Dünyada, o cümlədən Yaxın Şərqdə gedən münaqişələrə rəğmən ölkəmizdə ictimai-siyasi və dini durum sabitdir.

Bu fikir avqustun 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK), Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun və Lənkəran Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində "Milli təhlükəsizliyə əsas təhdidlərdən biri-dini ekstremizm" mövzusunda keçirilən seminar-müşavirədə səsləndirilib.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Seminar-müşavirədə DQİDK-nın məsul işçiləri, Astara, Lənkəran, Lerik, Masallı və Yardımlı rayonlarının icra hakimiyyəti başçılarının birinci müavinləri, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidmətinin vəzifəli şəxsləri, eyni zamanda bu qurumların adıçəkilən rayonlardakı yerli strukturlarının rəhbərləri, ziyalılar, dindarlar və gənclər iştirak ediblər.

Seminar-müşavirə DQİDK-nın sifarişi ilə çəkilən "Şəhadət" sənədli filminin nümayişi ilə başlayıb.

Filmin nümayişindən sonra Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov çıxış edərək bildirib ki, seminar-müşavirənin keçirilməsində əsas məqsəd Azərbaycanda dini ekstremizmə qarşı mübarizə sahəsində görülən işləri və qarşıda duran vəzifələri müzakirə etməkdir. O, Azərbaycanda, o cümlədən Lənkəranda milli mənsubiyyətindən asılı olmayaraq hər bir inanclı insanın dini etiqad azadlığının yüksək səviyyədə təmin olunduğunu diqqətə çatdırıb.



T.Qaraşov çıxışında, həmçinin "Şəhadət" sənədli filminin əhəmiyyətini vurğulayaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bu istiqamətdəki fəaliyyətini yüksək dəyərləndirib.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov Azərbaycan dövlətinin din siyasətinin əsas prioritet istiqamətlərindən danışaraq vurğulayıb ki, dövlətin başlıca vəzifəsi vətəndaşlarımızın dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin tənzimlənməsi və təkmilləşdirilməsi, həmçinin respublikamızda milli dini kadrların hazırlanmasıdır. O bu məqsədlə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasını, din xadimlərinin maddi təminatının yüksəldilməsi üçün onlara maddi dəstək verilməsini Prezident İlham Əliyev tərəfindən atılmış uzaqgörən, məntiqli və mütərəqqi addım olduğunu diqqətə çatdırıb.

Dini radikalizm və ekstremizmin yaranma səbəbləri, mahiyyəti və ona qarşı mübarizə metodlarından danışan S.Heydərov qeyd edib ki, araşdırmalar Azərbaycandakı bu sabitliyi və inkişafı, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasını istəməyən bəzi xarici dairələr tərəfindən respublikamıza qarşı pozuculuq fəaliyyətinin bir an belə səngiməədiyini göstərir. Çox təəssüf ki, bəzi şəxslər bu qüvvələrin təsirinə məruz qalırlar. Eləcə də bəzi kriminal ünsürlər öz çirkin, məkrli niyyətlərini gizlətmək üçün din libasına bürünərək ölkəmizdəki dini sabitliyə təsir göstərməyə cəhdlər edirlər.

Dövlət Komitəsi sədrinin müavini bildirib ki, bizim başlıca vəzifəmiz vətəndaşlarımızı, xüsusilə gənclərimizi bu cür yad dini ideologiyaların təsirindən qorumaqdır. Bu baxımdan maarifləndirmə tədbirlərinin effektivliyinin artırılmasına xüsusi önəm verilir.

Tədbirdə mövzu ilə bağlı çıxış edən Daxili İşlər Nazirliyinin şöbə rəisi Oqtay Tağıyev, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun Aparat rəhbəri İsaxan Vəliyev və Qafqaz Müsəlmanları İdarəsinin cənub bölgəsi üzrə qazısı Qəni Axundzadə dini radikalizm və ektremizmə qarşı həyata keçirilən profilaktik və inzibati tədbirlər, eləcə də son dövrlərdə bu sahə üzrə qanunvericilikdə edilmiş dəyişikliklər barədə məlumat veriblər.

# Lənkərandakı N saylı hərbi hissədə «Hərbi vətənpərvərlik: Silahlı Qüvvələrimiz və milli mənəvi dəyərlərimiz» mövzusunda tədbir keçirilib

Avqustun 17-də Dövlət Sərhəd Xidmətinin (DSX) Lənkərandakı N saylı hərbi hissəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Hərbi vətənpərvərlik: Silahlı Qüvvələrimiz və milli mənəvi dəyərlərimiz" mövzusunda tədbir keçirilib.

Əvvəlcə DQİDK-nın sifarişi ilə hazırlanan "Şəhadət" sənədli filmi nümayiş olunub.

Sonra zabit və sərhədçilərin iştirak etdiyi tədbirdə çıxış edən N saylı hərbi hissənin komandiri Azad Abdullayev müzakirə olunan mövzunun əhəmiyyətini diqqətə çatdırıb. O, dini zəmində çoxsaylı konflikt ocaqlarının cərəyan etdiyi bir zamanda respublikamızda aparılan dövlətin din siyasətinin uğuru kimi mövcud olan sabitliyin ölkəmizin hərtərəfli inkişafında mühüm rol oynadığını bildirib. Vurğulayıb ki, dövlət sərhədlərinin peşəkarcasına qorunmasında əsas amillərindən biri də sərhədçilərin vətənpərvərlik hissinin və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olmasıdır. Onun sözlərinə görə, DSX-nın rəhbərliyi şəxsi heyətin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinə xüsusi önəm verir və bu istiqamətdə məqsədyönlü işlər aparılır.

Daha sonra çıxış edən DQİDK sədrinin müavini Səyavuş Heydərov vətənpərvərliyin gücləndirilməsində milli-mənəvi dəyərlərin özünəməxsus rolundan bəhs edib. Qeyd edib ki, xalqımızın əsrlər boyu qoruyub-saxladığı milli-mənəvi dəyərləri mənimsəmədən, ona yaxından bələd olmadan vətənpərvər vətəndaş yetişdirmək mümkün deyil.

Ölkəmizdə dini radikalizm və ekstremizmin heç bir sosial dayağının olmadığını diqqətə çatdıran DQİDK-nın sədr müavini respublikamızda dini radikalizmlə mübarizənin effektivliyinin artırılması üçün maarifləndirmə, preventiv və profilaktik xarakterli tədbirlərə üstünlük verildiyini vurğulayıb. Natiq deyib ki, Dövlət Komitəsi bu istiqamətdə digər dövlət qurumları, o cümlədən hüquq mühafizə orqanları ilə koordinasiyalı şəkildə tədbirlər həyata keçirir.

Dövlət Komitəsi sədrinin müavini eyni zamanda, sərhədçiləri DQİDK-nın sifarişi əsasında çəkilmiş "Şəhadət" sənədli filmi barədə məlumatlandırıb.

"Vətəndaşlarımızı, xüsusilə gənclərimizi yad dini ideologiyaların təsirindən qorumaq əsas məqsədimizdir" - deyən S.Heydərov zərərli ideologiyaların təsirindən qorunmaq üçün gənclərin ayıq-sayıqlığının artırılmasının və dini bilgilərin sağlam mənbələrdən alınmasının zəruriliyini diqqətə çatdırıb.

Sonda tədbir iştirakçılarının suallarını cavablandıran sədr müavini sərhədçiləri qarşıdan gələn peşə bayramı münasibətilə təbrik edib, onlara Vətənimizin sərhədlərinin mühafizəsinin təminatçısı kimi şərəfli xidmətlərində uğurlar arzulayıb.

# GÜNDÜZ İSMAYILOV: TOLERANTLIQ XALQIMIZA GÖRƏ MƏDƏNİYYƏT VƏ MƏNƏVİYYAT MƏSƏLƏSİDİR



Avqustun 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) "Bakı Prosesi 10 il: Mədəniyyətlərarası dialoqun inkişafına töhfə kimi" adı altında baş tutan VII Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları ilə görüş keçirilib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov xalqımızın tolerantlıq ənənələrindən, bu sahədə dövlət siyasətindən, eləcə də Dövlət Komitəsinin fəaliyyət istiqamətlərindən söz açıb.

Gündüz İsmayılov bildirib ki, Azərbaycanda bütün dinlərin nümayəndələri əsrlərdir sülh və qardaşlıq şəraitində yaşayır. Azərbaycanda yüzlərlə müsəlman və onlarla qeyri-müsəlman dini icmasının dövlət qeydiyyatına alındığını qeyd edən sədr müavini bütün dinlər və dini qurumların qanun qarşısında bərabər olduğunu deyib. O, ölkəmizdəki dinlərarası harmoniyanın dünyada az rast gəlinən tolerantlıq nümunəsi olduğunu vurğulayıb. Dini dözümlülüyün başqaları üçün hüquqi norma, bizim üçünsə həyat tərzi olduğunu deyən sədr müavini bildirib ki, tolerantlıq xalqımıza görə mədəniyyət və mənəviyyat məsələsidir. O, ölkəmizdə tarixən mövcud olan bu cür yüksək mənəvi mühitin qorunub saxlanılmasında əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilən nümunəvi dövlət-din münasibətlərinin mühüm rolu olduğunu diqqətə çatdırıb.

Təmsil etdiyi qurumun fəaliyyəti haqqında danışan sədr müavini bildirib ki, DQİDK hökumətin din siyasətini həyata keçirməklə yanaşı, dini qurumların dövlət qeydiyyatına alınması, onlara lazımi köməkliyin göstərilməsi, eləcə də müvafiq icra hakimiyyəti orqanları ilə dini qurumlar arasında vasitəçilik kimi işləri görür.

Gündüz İsmayılov dinə dövlət dəstəyinin təzahürü olaraq, Dövlət Komitəsinin tabeliyində yaradılan qurumlardan da danışıb. Bildirib ki, Mənəvi Dəyərlərin Təbliği Fondu hazırda 1068 din xadiminə maddi yardım göstərir. Əlavə edib ki, qeyri-müsəlman dini icmalara da hər il dövlət tərəfindən maddi dəstək göstərilir. Sədr müavini Azərbaycan İlahiyyat İnstitutunda İslamla yanaşı, xristian və yəhudi dini üzrə də mütəxəssislərin hazırlanacağını vurğulayıb.

Tələbələri Azərbaycan həqiqətləri barədə məlumatlandıran sədr müavini işğal edilmiş ərazilərdə olan onlarla alban abidəsinin qriqoryanlaşdırıldığını və dağıdıldığını, məscidlərin erməni vandalizminə məruz qaldığını qeyd edib. Bildirib ki, bütün bunlara baxmayaraq, Bakının mərkəzində erməni kilsəsi qorunub-saxlanılır.

Görüş tələbələri maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

# VƏTƏNPƏRVƏRLİK MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ ƏSAS ELEMENTLƏRİNDƏN BİRİDİR



Avqustun 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Daxili İşlər Nazirliyinin birgə təşkilatçılığı ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Quba rayonunda yerləşən "N" saylı hərbi hissəsində maarifləndirmə tədbiri keçirilib.

Tədbirdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, hərbi hissə komandirinin müavini Aftandil Budaqov, zabit, gizir heyəti və əsgərlər iştirak ediblər.

Əvvəlcə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sifarişi ilə çəkilmiş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi nümayiş etdirilib. Filmin nümayişindən sonra çıxış edən hərbi hissə komandirinin müavini Aftandil Budaqov "Şəhadət" filminin gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi işinə böyük töhfə olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, bu cür ekran əsərləri əsgərlərimizin döyüş ruhunu daha da yüksəldir.

Daha sonra çıxış edən Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov "Şəhadət" sənədli filminin çəkilməsini zəruri edən amillərə toxunub, filmin dini maarifləndirmə işindəki əhəmiyyətindən danışıb. Sədr müavini qeyri-ənənəvi dini cərəyanlar və dini radikalizm barədə ətraflı məlumat verərək bu cür mənfi tendensiyaların yaranma səbəbləri və təbliğatının qarşısını almaq yollarından geniş bəhs edib. Bildirib ki, radikalizmi meydana gətirən əsas səbəblərdən biri İslam dini haqqında məlumatsızlıq və ümumilikdə dini biliklərin zəif olmasıdır. Ona görə də dini radikalizmlə mübarizə işində başlıca istiqamət dini maarifçilik, milli-mənəvi dəyərlərin qorunması və təbliği işinin mütəmadi aparılmasıdır. Bu cür maarifçilik tədbirləri cəmiyyətin bütün təbəqələrində, o cümlədən hərbi hissələrdə təşkil olunur.

Gündüz İsmayılov İslam dinində şəhidlik, Vətən anlayışı, dinimizin Vətən uğrunda mübarizəyə verdiyi dəyər barədə iştirakçılara ətraflı məlumat verib. Qeyd edib ki, Dövlət Komitəsinin təşkilatçılığı ilə dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin təbliği, gənclərin dini radikal təsirlərdən qorunması, Vətənə, dövlətə bağlılıq ruhunda tərbiyə olunması istiqamətində Bakı şəhərində və respublikanın regionlarında müxtəlif tədbirlər həyata keçirilib: "Vətənpərvərlik milli-mənəvi dəyərlərimizin və Azərbaycançılıq ideologiyasının əsas elementlərindən biridir və Azərbaycan ordusu işğal olunmuş torpaqlarımızı azad etməyə mənəvi-psixoloji baxımdan tam hazırdır".

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞ KEÇİRİLİB



**Avqustun 31-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Gündüz İsmayılov Amerika Sefard Federasiyasının nümayəndə heyəti ilə görüşüb.**

Amerika Sefard Federasiyasının icraçı direktoru Ceyson Qubermanın başçılıq etdiyi nümayəndə heyətini səmimi salamlayan Gündüz İsmayılov Dövlət Komitəsinin fəaliyyəti barədə ətraflı məlumat verib.

Ölkəmizdəki dini durum və dövlət-din münasibətlərindən bəhs edən Gündüz İsmayılov bildirib ki, bu gün Azərbaycan tolerantlıq və multikultural dəyərlərə görə dünyada nümunə ola biləcək ölkələrdən biridir. Ölkəmizdə müxtəlif konfessiyalar sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərirlər. Ümummilli Lider Heydər Əliyevin dövlətçilik konsepsiyasına uyğun yürüdülən siyasi kurs nəticəsində ölkəmizdəki dinlər və etnik qruplar arasındakı münasibətlər, tarixən mövcud olan tolerantlıq ənənələri dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Ümummilli Liderin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyev hazırda ölkədə dini etiqad azadlığının və multimədəni harmoniyanın təminatçısı və himayədarıdır. Azərbaycan hökumətinin din siyasəti demokratik dövlət quruculuğuna, dövlət-din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Dövlət tərəfindən hər il dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi üçün maliyyə vəsaiti ayrılır, tarixi dini ibadət yerləri bərpa olunur, yeniləri tikilib inanclı insanların ixtiyarına verilir.

Yəhudilərin Azərbaycan torpaqlarında məskunlaşmasının 26 əsrlik tarixi olduğunu, xalqımızla yalnız Vətənini deyil, taleyini də paylaşdığını vurğulayan sədr müavini qeyd edib ki, yəhudilər Azərbaycan xalqının bir hissəsi olaraq ölkəmizin ictimai-siyasi, mədəni həyatında fəal iştirak edir.

Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Gündüz İsmayılov 25 ildən çox davam edən hərbi münaqişə nəticəsində ölkəmizin 20 faiz ərazisinin işğal olunduğunu diqqətə çatdırıb. Qeyd edib ki, işğal olunmuş ərazilərimizdə çoxlu sayda abidələrimiz, o cümlədən məscidlər, mədəniyyət abidələri, kitabxanalar, klublar, tarixi-dini abidələr dağıdılıb.

Səmimi qəbula və ətraflı məlumata görə öz minnətdarlığını ifadə edən Amerika Sefard Federasiyasının icraçı direktoru Ceyson Quberman rəhbərlik etdiyi təşkilat və nümayəndə heyətinin ölkəmizə səfərinin məqsədi haqqında geniş məlumat verib. Bir sıra qurumlarda, eləcə də bölgələrdə yaşayan yəhudi icmasının nümayəndələri ilə görüşlər keçirəcəklərini, ölkəmizdə mövcud olan multikultural mühit, xalqımızın tolerantlıq ənənələri ilə yaxından tanış olmaq arzularını bildirib.

# MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ FONDUNUN RƏHBƏRLİYİ TÜRKİYƏDƏ BİR SIRA GÖRÜŞLƏR KEÇİRİB



Türkiyə Diyanət Vəqfinin dəvəti ilə bu ölkədə səfərdə olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun rəhbərliyi avqustun 8-də Diyanət İşləri Başqanının Diyanət Vəqfi üzrə müavini İlyas Serenli ilə görüşüb.

Görüşdə çıxış edən Fondun icraçı direktoru Mehman İsmayılov bildirib ki, respublikamızda tarixi ənənəyə söykənən tolerantlıq mühiti formalaşıb. M. İsmayılovun sözlərinə görə, ölkəmizin multikulturalizm modeli dünyaya örnəkdir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətləri barədə də ətraflı məlumat verən icraçı direktor bu siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, Azərbaycanda 2250 məscid, 14 kilsə, 7 sinaqoq mövcuddur.

Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılma məqsədi və fəaliyyət istiqamətlərindən bəhs edən natiq deyib ki, Fond mənəvi dəyərlərin qorunmasına və inkişafına, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyini həyata keçirir.

Daha sonra çıxış edən Türkiyə Diyanət İşləri Başqanının Diyanət Vəqfi üzrə müavini İlyas Serenli iki ölkə arasında olan sıx münasibətlərin təcrübə mübadiləsi baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Bildirib ki, bir millət iki dövlət olan Türkiyə və Azərbaycanın mənəvi sahədə sıx birliyi olduqca əhəmiyyətlidir.

Eyni zamanda, Fond rəhbərliyinin Türkiyə Diyanət Vəqfinin direktoru Mehmet Savaş Polat, Diyanət Vəqfinin Qaynaq İstehsalat İdarəsinin müdir müavini Süleyman Baysal, Diyanət İşləri Başqanlığının Xarici Əlaqələr İdarəsinin Avrasiya bölgə şöbə müdiri Ömer Faruk Savuran, Din Xidmətləri İdarəsinin Came Xidmətləri şöbəsinin müdiri Neşet Bodur, Həcc və Ümrə Xidmətləri İdarəsinin Həcc və Ümrə Təlimi şöbəsinin müdiri Esma Ertenlə də görüşü keçirilib.

***

DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun rəhbərliyinin avqustun 9 da İstanbulda adıçəkilən şəhərin müftisinin din xidmətləri üzrə müavini Musa Bilgiç, xarici əlaqələr üzrə müavini Veysel Işıldar və İstanbul Anadolu Beynəlxalq İmam Xətib litseyi müdiri Bayram Kefeli ilə görüşləri olub.

Keçirilən görüşlərdə Fondun icraçı direktoru bildirib ki, İslam mədəniyyətinin bir parçası kimi Azərbaycan xalqı həmişə öz üstün mənəvi dəyərləri ilə seçilib. Dinimizin ali dəyərlərinə qəlbən bağlılıq tarixin heç bir çətin sınağında xalqımızı öz inancından yayındırmayıb. İcraçı direktor qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən ölkəmizdə 2016-cı ilin "Multikulturalizm ili", 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması Azərbaycanın İslam dünyasının birliyinə, dinlərarası harmoniyaya, eləcə də dini-mənəvi dəyərlərə diqqət və qayğısının bariz nümunəsidir.

M. İsmayılov eyni zamanda, rəhbərlik etdiyi Fondun fəaliyyət istiqamətləri barədə geniş məlumat verib.

Görüşlərdə İstanbuldakı məscidlərin fəaliyyəti, məscidlərdə mənəvi dəyərlərin təbliği mexanizmi və din xadimlərinin bu sahədə həyata keçirdiyi tədbirlər də müzakirə edilib.



# AYIN PANORAMI

Avqustun 3-də Azərbaycan İlahiyyat İnstitutunda “Mediada dini mövzuların işıqlandırılması” mövzusunda seminar keçirilib.

Seminarda institutun müəllimi Aqil Şirinov bildirib ki, Azərbaycanda dövlət-din münasibətləri yüksələn xətlə inkişaf edir. O, Azərbaycanın çoxkonfessiyalı ölkə olduğunu və burada ayrı-ayrı dinlərin və məzhəblərin nümayəndələrinin qarşılıqlı anlaşma şəraitində yaşadığını bildirib.

Azərbaycanda milli-mənəvi dəyərlərin və dini durumun sabitliyinin qorunması üçün qarşıda iki mühüm vəzifənin dayandığını bildirən A.Şirinov bunlardan birincisinin radikal dini qruplara qarşı ideoloji sahədə mübarizəni gücləndirməkdən, digərinin isə xurafata qarşı mübarizə aparmaqdan ibarət olduğunu qeyd edib. O, radikallıq və xurafata qarşı mübarizədə medianın gücündən istifadə etməyin zəruri olduğunu vurğulayıb.



Daha sonra jurnalist Kənan Rövşənoğlu “Mediada dini mövzuların işıqlandırılması” mövzusunda məruzə ilə çıxış edib.

***

Avqustun 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin birgə Tədbirlər Planına uyğun olaraq Şəki Penitensiar Müəssisəsində “Multikultural cəmiyyətdə dini radikalizm təhlükəsi” mövzusunda tədbir keçirilib.



Tədbirdə DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin müdiri vəzifəsini icra edən Taleh Abdullayev, QMİ-nin Şəki-Oğuz bölgəsi üzrə qazısı Kamran Məmmədov, cəzaçəkmə müəssisəsinin rəis müavininin səlahiyyətlərini icra edən ədliyyə mayoru Elçin Cəfərov çıxış ediblər.

***

Avqustun 9-da Səbail RİH, Mənəvi Dəyərlərin Təbliği Fondu və “Milli Düşüncə” milli-mənəvi dəyərlərin təbliği ictimai birliyinin birgə təşkilatçılığı ilə Səbail RİH-də “Vətən anlayışı və milli-mənəvi özünüdərk” mövzusunda tədbir keçirilib.

Tədbirdə Səbail RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı İsrafil Kərimov, “Milli Düşüncə” milli-mənəvi dəyərlərin təbliği ictimai birliyinin icraçı direktoru Rəşid Paşalı və DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin əməkdaşı Nuru İmanov çıxış edərək bildiriblər ki, Vətəni qorumaq milli-mənəvi borcumuzdur və yaşadığımız Vətən torpaqları qəhrəman əcdadlarımızın, Vətən uğrunda şəhid olmuş igidlərimizin bizə əmanətidir.

***

Avqustun 16-da Azərbaycan İlahiyyat İnstitutunda “Bədəviliyin sosio-psixoloji analizi” mövzusunda seminar keçirilib.

Tədbiri giriş sözü ilə açan İnstitutun rektoru Ceyhun Məmmədov Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu din siyasətinin bu gün Azərbaycan



Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, din sahəsinə, milli-mənəvi dəyərlərimizin qorunmasına xüsusi önəm verildiyini qeyd edib. O, Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasının bu qayğı və diqqətin təzahürü olduğunu bildirib.

Daha sonra ilahiyyat üzrə fəlsəfə doktoru Vüqar Səmədov Bədəvilik haqqında geniş məruzə ilə çıxış edib.

***

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin əməkdaşı Səfər Səfərlinin İsraildə geniş oxucu auditoriyasına malik, nüfuzlu “Jerusalem Herald” xəbər portalında “Azərbaycan - İsrailin tolerant müsəlman qonşusu” başlıqlı məqaləsi dərc edilib.

Məqalədə Azərbaycandakı nümunəvi dini tolerantlıq mühitindən, milli-mənəvi dəyərlərin yüksək səviyyədə qorunub-saxlanılmasından, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, eləcə də Azərbaycan-İsrail dostluq əlaqələrindən, müxtəlif sahələrdə uğurlu əməkdaşlıqdan bəhs edilir.

***

Avqustun 17-də Kürdəmir RİH, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə Kürdəmir şəhər “İmam Rza” məscidində dini icma sədrləri və din xadimləri ilə görüş keçirilib.

Tədbirdə Kürdəmir RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Elxan Qafarov, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin əməkdaşı



Samir Əhmədov, QMİ-nin Kürdəmir rayonu üzrə səlahiyyətli nümayəndəsi Füzuli Cəfərov, rayonda fəaliyyət göstərən dini icma sədrləri və din xadimləri iştirak ediblər.

Çıxış edən natiqlər bildiriblər ki, humanizmi və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən İslam dini xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynayıb, mütərəqqi islami dəyərlər və ənənələr Azərbaycanda həmişə uca tutulub. Ölkəmizdə bütün dinlərin nümayəndələrinə öz dini etiqad və azadlıqlarını ifadə etmək, dini ayin və mərasimləri sərbəst yerinə yetirmək üçün şərait yaradılıb.

Tədbirdə, eyni zamanda Məhərrəm ayı ilə bağlı tədbirlərin mövcud qanunvericiliyə uyğun şəkildə keçirilməsinin zəruriliyi diqqətə çatdırılıb.

***

DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı rayonu Rəhim Tağıyev adına Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə avqustun 20-də “Mənəvi birlik rəmzi - Qurban bayramı” mövzusunda tədbir keçirilib.

Tədbirdə DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin əməkdaşı Ayıq Səmədov, Masallı rayonu Rəhim Tağıyev adına Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Əntiqə Tağıyeva, Masallı rayonu Şərəfə kənd məscidi dini icmasının sədri Sərdar Ağababayev, ziyalılar və gənclər iştirak ediblər.

***

Avqustun 21-də DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə rayonun Kənarmeşə kənd məscidində maarifləndirmə tədbiri keçirilib.



Tədbirdə DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin əməkdaşları Emin Həmidli, Tacəddin Sadıqov, Lənkəran ŞİH başçısının Kənarmeşə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Fail Həşimov, din xadimləri, ağsaqqallar, kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

***

Avqustun 10-da Azərbaycan İlahiyyat İnstitutunda “Bəhailiyin teoloji əsasları” mövzusunda seminar keçirilib.

Tədbiri giriş sözü ilə açan ali məktəbin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov Ulu Öndər Heydər Əliyevin din siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olduğunu söyləyib. C.Məmmədov



Azərbaycanın müxtəlif dini təriqətlərin və cərəyanların yayıldığı tolerant ölkə olduğunu bildirib.

Sonra Bakı Dövlət Universitetinin dosenti Azər Cəfərov bəhailiyin tarixi haqqında ətraflı məlumat verib, bir sıra tədqiqatçıların bu etiqadla bağlı fikirlərini diqqətə çatdırıb.

Daha sonra Azərbaycan İlahiyyat İnstitutunun baş müəllimi, ilahiyyat

Davamı səh. 13

# AYIN PANORAMI

Əvvəli səh. 12

üzrə fəlsəfə doktoru Aqil Şirinov "Səmavi dinlərdə Qurban ibadəti" mövzusunda məruzə ilə çıxış edib.

***

Avqustun 24-də DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və İnsan Hüquqları üzrə Müvəkkilin Quba regional mərkəzinin birgə təşkilatçılığı ilə rayonun "Cümə" məscidində "Dini radikalizm: insan hüquq və azadlıqlarına təhlükə kimi" mövzusunda tədbir keçirilib.

Tədbirdə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin müdiri Eynulla Nurullayev, regional mərkəzin rəhbəri Bəhruz Əfəndiyev, Quba şəhəri "Cümə" məscidi dini icmasının sədri, imam Ənvər Səidov və dindarlar iştirak ediblər.

***

Avqustun 25-də İlahiyyat İnstitutunda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbir-sərgi keçirilib.

Tədbiri giriş sözü ilə açan institutun rektoru Ceyhun



Məmmədov sərginin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 yanvar 2018-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi ilə bağlı keçirildiyini qeyd edib.

Daha sonra tədqiqatçı Dilqəm Əhməd "Mühacirətdə yaşadılan Cümhuriyyət" mövzusunda sərgilərin təşkilinin məqsədi, sərgidə nümayiş etdirilən əsərlər, onların mövzusu və mahiyyəti haqqında geniş məlumat verib.

Tədbirin sonunda Cümhuriyyət arxivinin sərgisi və "Bir ildən yüz ilə" kitabının imza mərasimi keçirilib, Azərbaycan Xalq Cümhuriyyətinə və mühacirət tarixinə aid nadir materiallar sərgilənib, iştirakçılara müəllifin kitabları təqdim edilib.

***

Avqustun 28-də Bakıda DQİDK-nın tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Mənəvi dəyərlərin təbliği mərkəzi: Azərbaycan ailəsi" mövzusunda konfrans keçirilib.

Tədbirdə hər iki qurumun rəsmi şəxsləri ilə yanaşı



AMEA-nın ekspertləri, gənclər, tələbələr və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyət istiqamətlərindən, ailə dəyərlərinin əhəmiyyətindən və müasir dövrdə Azərbaycan ailəsinin qarşılaşdığı problemlərdən bəhs edilib. Bildirilib ki, ölkəmizdə ailə institutuna strateji baxımından böyük önəm verilir. Yeni nəslin mənəviyyatlı yetişməsində ailənin böyük önəmi olduğu qeyd edilən tədbirdə bildirilib ki, ailə cəmiyyətdə kiçik dövlət funksiyasını daşıyır.

***

Avqustun 28-də Daxili Qoşunların Gəncədəki N saylı hərbi hissəsi və DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi birgə Tədbirlər Planına uyğun olaraq "Azərbaycanda ənənəvi İslam və xarici təsirlər" mövzusunda dini maarifləndirmə tədbiri təşkil edib.

Tədbirdə hərbi hissə komandirinin təlim-tərbiyə işləri üzrə müavini mayor Surxay Gülməmmədov, DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Asif Əliyev, hərbi hissənin zabit və əsgər heyəti iştirak edib.

Tədbirdə DQİDK-nın sifarişi ilə ərsəyə gəlmiş, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

Tədbirdə çıxış edən natiqlər bildiriblər ki, ölkəmiz dünyəvilik prinsiplərinə əsaslanmaqla multikultural dəyərləri yaşatmaqda və inkişaf etdirməkdədir. Azərbaycan bu sahədə tarixi təcrübəyə malikdir və ölkəmizdə müxtəlif etnik, dini qrupların birgəyaşayış mühiti sağlam təməllər üzərində qurulub.

***

Avqustun 28-də DQİDK-nın təşkilatçılığı ilə Qəbələ şəhər "Cümə" məscidində "Sülh aylığı: multikultural cəmiyyətdə dini tolerantlığın önəmi" mövzusunda tədbir keçirilib.

DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin əməkdaşı



Zaman Şirinov, Qəbələ şəhər Mərkəzi Cümə məscidinin imamı Saleh Şirinov, dini icma üzvləri və ziyalılar iştirak ilə keçirilən tədbirdə Azərbaycanda milli və dini tolerantlıqla bağlı vəziyyət, konfessiyalararası dözümlülük, multikultural dəyərlərin təşviqi barədə ətraflı danışılıb. Qeyd edilib dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınan Azərbaycan bütün dinlərin həmrəyliyinə çalışan ölkə kimi ad qazanıb.

***

Avqustun 29-da DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin və Yeni Azərbaycan Partiyasının Yevlax şəhər təşkilatının birgə təşkilatçılığı ilə "Sülh Aylığı" çərçivəsində "İslam sülh və əmin-amanlıq dinidir" mövzusunda tədbir keçirilib.

Tədbirdə bildirilib ki, ölkəmizdə sülh və əmin-amanlığın yaradılmasının əsası Ulu Öndər Heydər



Əliyev qoyulub. Hazırda isə Ümummilli Liderin sülhpərvər siyasətini Prezident cənab İlham Əliyev uğurla davam etdirir. Qeyd edilib ki, "Beynəlxalq sülh günü" dedikdə sadəcə xalqlar arasındakı münasibət deyil, eyni zamanda mədəniyyətlərarası, dinlərarası barış da nəzərdə tutulur.

***

Avqustun 29-da DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və QMİ-nin birgə təşkilatçılığı ilə Bakı İslam Universitetinin Zaqatala şöbəsində "Dini radikalizm: insan hüquq və azadlıqlarına təhlükə kimi" mövzusunda tədbir keçirilib.

Tədbirdə DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi-



nin müdiri vəzifəsini icra edən İlqar Vəliyev, Zaqatala RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Ramin Həsənov, QMİ-nin səlahiyyətli nümayəndəsi Rasim Musayev, rayondakı məscidlərin imamları və dini icma sədrləri iştirak ediblər.

Tədbirdə "Beynəlxalq Sülh Günü"nün yaranması tarixi, mahiyyəti, Prezident İlham Əliyevin bütün dünyada sülh və əmin-amanlıq naminə apardığı uğurlu siyasəti barədə ətraflı məlumat verilib, eyni zamanda dini radikalizmin cəmiyyətimizdə insan hüquq və azadlıqlarına yaradan təhlükələrindən bəhs edilib.

***

Avqustun 29-da Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında imzalanmış Tədbirlər Planı çərçivəsində 2, 9 və 17 saylı cəzaçəkmə müəssisələrində maarifləndirmə tədbirləri keçirilib.

Tədbirlərdə Penitensiar Xidmətin Tərbiyə işinin təşkili idarəsinin məsul əməkdaşı Süleyman Salayev, DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin əməkdaşı Əli Həziyev və Bakı İslam Universitetinin müəllimi Abbas Qurbanov iştirak ediblər.

***

Avqustun 30-da DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və Şəmkir RİH-in birgə təşkilatçılığı ilə Şəmkir rayon Heydər Əliyev mərkəzində "Sülh aylığı" çərçivəsində tədbir keçirilib.

Tədbirdə Şəmkir RİH-in başçısı Alimpaşa Məmmədov, RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Ruhid Hacıyev, rayon təhsil şöbəsinin müdiri Məcid Şıxlinski, DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin əməkdaşı Vüqar Əliyev, Şəmkir şəhər "Cümə"məscidinin imamı Natiq Şıxəliyev və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

***

Azərbaycan İlahiyyat İnstitutuna ilk tədris ili üçün islamşünaslıq ixtisası üzrə 35, dinşünaslıq ixtisası üzrə isə 25 nəfər olmaqla cəmi 60 nəfər abituriyentin qəbulu həyata keçirilib. Artıq avqustun 30-da sonuncu abituriyent də instituta sənədlərini təqdim etməklə qeydiyyatdan keçib. Qeydiyyatdan keçən abituriyentlərdən dinşünaslıq ixtisası üzrə ən aşağı bal 217, ən yüksək bal 463, islamşünaslıq ixtisası üzrə ən aşağı bal 177, ən yüksək bal isə 396 bal olub.

# Mənəvi Dəyərlərin Təbliği Fondunun könüllüləri üçün Qax rayonunda Yay Məktəbi təşkil edilib

Mənəvi Dəyərlərin Təbliği Fondu Azərbaycanın müxtəlif bölgələrindən olan gənclərdən ibarət könüllülər üçün Qax rayonunda üçgünlük Yay Məktəbi təşkil edib.

Yay Məktəbində Fondun icraçı direktoru Mehman İsmayılov açılış nitqi ilə çıxış edib. İcraçı direktor çıxışında Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması, fəaliyyət istiqamətləri, həyata keçirdiyi tədbirlər haqqında geniş məlumat verib. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı siyasətinin cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirən M.İsmayılov Fondun yaradılmasının bu siyasətin məntiqi nəticəsi olduğunu qeyd edib. İcraçı direktor bildirib ki, mənəvi dəyərlərin qorunması, inkişafı, habelə ölkəmizdə və xaricdə təbliği prioritet məsələdir və gənclərin bu sahədə fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir.

Daha sonra çıxış edən Azərbaycan İlahiyyat İnstitutunun baş müəllimi, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov mənəvi dəyərlərin birgəyaşayış ənənəsinin təməlində duran ən vacib amillərdən biri olduğunu diqqətə çatdırıb. Xalqımızda formalaşmış multikultural və tolerant ənənələrin əsas qaynağının mənəvi dəyərlər olduğunu bildirən natiq bu dəyərlərin birləşdirici mahiyyətinin xüsusiyyətləri haqqında geniş məlumat verib.

Çıxışlardan sonra könüllüləri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Yay Məktəbi öz işini müxtəlif mövzuda seminar və müzakirələrlə davam etdirəcək.




## Azərbaycan İlahiyyat İnstitutu və Heydər Əliyev İrsini Araşdırma Mərkəzi birgə layihəyə start verib

Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyətinin prioritet istiqamətlərindən biri ölkədə fəaliyyət göstərən hökumət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın qurulmasıdır. Bu baxımdan institut Heydər Əliyev İrsini Araşdırma Mərkəzi (aliyevheritage.org) ilə birgə Ümummilli Liderimiz Heydər Əliyevin 95 illiyinə həsr olunan layihəyə start verib. Layihə Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının "www.1905.az" internet portalının bazasında keçiriləcək. Bununla bağlı "Heydər Əliyev və multikultural dəyərlər", "Heydər Əliyev və dövlət-din münasibətləri", "Heydər Əliyev və milli-mənəvi dəyərlərin qorunması", "Dini radikalizmin səbəbləri və doğurduğu nəticələr", "Milli kimliyimizin formalaşmasında dini dəyərlərin rolu", "Tolerantlığın Azərbaycan modeli" və s. mövzularda silsilə diskussiyaların aparılması nəzərdə tutulub. Diskussiyalarda ölkəmizin tanınmış ilahiyyatçılarının, fəlsəfəçilərinin və jurnalistlərinin iştirakı nəzərdə tutulub. İlk diskussiya 5 sentyabr 2018-ci il tarixdə "Azərbaycanda dini təhsil: reallıqlar və perspektivlər" mövzusunda keçiriləcək. Diskussiya Heydər Əliyev İrsini Araşdırma Mərkəzində olacaq. Layihə başa çatdıqdan sonra diskussiyaların stenoqramı əsasında kitabın nəşr edilməsi planlaşdırılıb.

## Azərbaycan İlahiyyat İnstitutunun loqosu müəyyənləşib




Azərbaycan İlahiyyat İnstitutu öz korporativ loqosunun təşkili üçün 26 iyul 2018-ci il tarixində müsabiqə elan edib. Keçirilən loqo müsabiqəsi ilə əlaqədar Azərbaycan İlahiyyat İnstitutunda avqustun 8-də iclas keçirilib. İclasda loqo nümunələri komissiya üzvlərinə təqdim edilib və müzakirələr aparılıb.

Qeyd edək ki, müsabiqəyə Azərbaycanın müxtəlif bölgələrindən fərdi və müştərək qaydada 36 müəllif ümumilikdə 106 loqo nümunəsi təqdim edib. Elan edilən parametrlər üzrə qiymətləndirilmədən sonra Könül Məmmədzadənin təqdim etdiyi loqo nümunəsi müsabiqənin qalibi seçilib.

Komissiya üzvlərinin yekdil rəyinə görə, K.Məmmədzadənin təqdim etdiyi nümunə Azərbaycan İlahiyyat İnstitutunun məqsəd və məramını daha yaxşı əks etdirib. Belə ki, multikulturalizmi və tolerantlığı əks etdirən loqonun tam mərkəzindəki əlləri səmaya yönələn "insan" simvolu Tanrı ilə ünsiyyəti, "kitab" - elmin əsas qaynağını, "zeytun budağı" isə sülhü və mənəviyyatı ifadə edir.

## "Səmavi dinlərdə Qurban ibadəti"

Avqustun 21-də Azərbaycan İlahiyyat İnstitutunda "Səmavi dinlərdə Qurban ibadəti" adlı növbəti seminar keçirilib.

Seminarı giriş sözü ilə açan institutun rektoru Ceyhun Məmmədov tədbir iştirakçılarını Müqəddəs Qurban bayramı münasibəti ilə təbrik edib. Hər il Azərbaycanda dövlət səviyyəsində qeyd olunan Qurban bayramının insanları birliyə və humanizmə çağırdığını qeyd edib.

C.Məmmədov bildirib ki, Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra milli-mənəvi dəyərlərimizin qorunması, dini bayramların rəsmi qeyd olunması dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu siyasəti uğurla davam etdirir.



Azərbaycan İlahiyyat İnstitutunda maarifləndirmə mahiyyəti daşıyan seminarların keçirilməsinin artıq ənənə halını aldığını qeyd edən C.Məmmədov tədbirin mövzusunun Qurban bayramı ilə bağlı olduğunu bildirib.

Daha sonra Azərbaycan İlahiyyat İnstitutunun baş müəllimi, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov "Səmavi dinlərdə Qurban ibadəti" mövzusunda məruzə ilə çıxış edib. A.Şirinov qurban ayininin insanlıq tarixi qədər qədim olduğunu qeyd edərək paleolit dövründən etibarən müxtəlif inanc sistemlərində bu ibadətin fərqli formalarda icra edildiyini bildirib. Səmavi dinlərdəki qurban ibadətinin İbrahim peyğəmbərin adı ilə bağlı olduğunu bildirən Aqil Şirinov Qurani-Kərimin "Saffat" surəsinin 100-107-ci ayələrinə görə İbrahim peyğəmbərin Allahdan bir övlad istədiyini, duası qəbul olunaraq ona İsmayılın bəxş edildiyini, daha sonra övladını Allah yolunda qurban etməsinin əmr olunduğunu qeyd edib. Qurana görə Həzrət İbrahim oğlu İsmayılı qurban etmək istədikdə ona bu imtahandan müvəffəqiyyətlə keçdiyi bildirilib və oğlunun əvəzinə bir qoç kəsmək əmr olunub. Yəhudi ənənəsində qurbanlığın İsmayılla deyil, İshaqla bağlı olduğunu vurğulayan A.Şirinov Quran və Tövratda fərqli adda olsa da eyni məzmun daşıyan ənənələrlə bəşəriyyətə iki mühüm ismarışın verildiyini sözlərinə əlavə edib. "Bu ismarışlardan birincisi İbrahim peyğəmbərin və oğlunun Tanrıya olan bağlılığı və təslimiyyətidir. İkincisi isə insanların qurban edilməsinin qadağan olunmasıdır." Belə ki, bəşər tarixinin müəyyən dövrlərində qurban ritualı öz mahiyyətindən uzaqlaşdırılıb, insanlar öz həmcinslərini belə, qurban etməyə başlayıb. Aqil Şirinov Həzrət İbrahimin yaşadığı dövrdə belə, insanları qurban etmə adətinin mövcud olduğunu qeyd edərək Allahın Həzrət İbrahim vasitəsilə müxtəlif dövrlərdə mövcud olmuş bu qeyri-insani adəti qadağan etdiyini, bunun yerinə qurbanı bir çox ictimai və mənəvi keyfiyyətləri özündə daşıyan bir ibadət kimi insanlara buyurduğunu vurğulayıb.

Seminar tədbir iştirakçılarının mövzu ətrafında müzakirəsi ilə davam edib.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## Dəyişiklik

### Zaqatala şəhər məscidi dini icması

Qeydiyyat tarixi: 27 aprel 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 323

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İbrahimov İbrahim Cərulla oğlu, İbrahimov Ömər Carulla oğlu, Süleymanov Hacıömər Abdulməcid oğlu, Şixsəfiyev Məhəmmədnəbi Nurudinoviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar və Qocayev Rasul Şaban oğlu, İsayev Allahverdi Həmzətoviç, İbrahimov Rəşad Hidayət oğlu, Əkbərov Zaur Tərlan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

İbrahimov İbrahim Cərulla oğlu dini icmasının sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və İbrahimov Rəşad Hidayət oğlu dini icmasının sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 13 iyul 2018-ci il**

### Astara rayonu Pensər kəndi "Cümə" məscidi dini icması

Qeydiyyat tarixi: 16 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 441

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şabanov Dadaş Ağabala oğlu, Cəfərov Qürbət Muğabil oğlu dini icmasının təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar və Rüstəmov Elman Fərhad oğlu, Məmmədov Əbülfət Qıncıəli oğlu, Səmədov Tofiq Qaydi oğlu, Babayev Mirzəli Səfər oğlu dini icmasının təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 13 iyul 2018-ci il**

### Masallı şəhəri Qabaq Dadva məhəllə məscidi dini icması

Qeydiyyat tarixi: 16 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 102

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Axundov Sabir Ağali oğlu, İsayev Xanlar İsa oğlu, Rəsulov Nazim Albaba oğlu dini icmasının təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar və Həsənov Elnur Aslan oğlu, Nəsirov Mahir Məmməd oğlu, Tahirov Elçin Hüseynbala oğlu, Rzayev Ağahüseyn Qafur oğlu, Hadıyev Amid Ağahüseyn oğlu, Yusubov Baloğlan Yusub oğlu dini icmasının təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 03 avqust 2018-ci il**

### Göyçay rayonu Çərəkə kənd məscidi dini icması

Qeydiyyat tarixi: 24 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 130

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Ömərov Sahil Allahverdi oğlu və Ömərov Asif Güləhməd oğlu dini icmasının təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 03 avqust 2018-ci il**

### Göyçay rayonu Alxasava kənd məscidi dini icması

Qeydiyyat tarixi: 15 mart 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 256

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Babayev Əmiraslan Baba oğlu, Şükürov Yolçu Beydulla oğlu, Zülfüqarov Abdurəhman Abdurəhim oğlu, Xələfov Xələf Zibeyir oğlu dini icmasının təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar və Xələfov Rəşad Rəhman oğlu, Zülfüqarov Fəqan Zülfüqar oğlu, Niftalıyev Şahmurad Əlisurət oğlu, Cəfərov Qurban Lazım oğlu, Rizvanov Laçın Sərkar oğlu dini icmasının təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 03 avqust 2018-ci il**

### Şəki rayonu Cunud kənd məscidi dini icması

Qeydiyyat tarixi: 11 may 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 360

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Səfərov Niymət Paşa oğlu, Verdiyev Məcnun Təmraz oğlu, Məmmədov Əlibala Əhməd oğlu, İsmayılov Abdulla Məmməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar və Başirov Şahmar Məmməd oğlu, Rəsulov Məmməd Nurullah oğlu, Əzizov İxtiyar Bənzər oğlu, Səfərov Laçın Hacıbey oğlu, Saatov Bəxtiyar Emin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 27 avqust 2018-ci il**

### Şəki şəhəri "Ömər Əfəndi" məscidi dini icması

Qeydiyyat tarixi: 07 may 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 345

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əhmədov Əli Abdulrəşid oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və İbrahimov Niyazı Yəhyə oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi: 27 avqust 2018-ci il**

## Ləğv olunan dini icmalar

### Cəlilabad rayonu Göytəpə şəhəri "İman Zaman" məscidi dini icması

Qeydiyyat tarixi: 17.05.1995-ci il
Qeydiyyat №-si: 102

Cəlilabad rayonu Göytəpə şəhəri "İman Zaman" məscidi dini icmasının təsisçilərinin 18.07.2018-ci, 02 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

**Ləğv olunması: 02 avqust 2018-ci ildə qeydə alınıb.**

### Kürdəmir rayonu Axtaçı sovetliyi Dayıkazımlı kənd dini icması

Qeydiyyat tarixi: 18.12.1996-cı il
Qeydiyyat №-si: 127

Kürdəmir rayonu Axtaçı sovetliyi Dayıkazımlı kənd dini icmasının təsisçilərinin 27.02.2018-ci, 3 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

**Ləğv olunması: 16 avqust 2018-ci ildə qeydə alınıb.**

# "İşğal altındakı tarixi-dini abidələrimiz" kitabı alman dilində nəşr olunub




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Ermənistan tərəfindən maddi-mədəniyyət abidələrimizə qarşı törədilən vandalizm hərəkətlərinin, işğal altındakı bütün maddi irsimizin məhv edilməsi faktlarının dünya ictimaiyyətinə çatdırılmasını hər zaman diqqət mərkəzində saxlayır.

Dövlət Komitəsi işğal altında qalan tarixi-dini abidələrimizin tam sayının, mövcud vəziyyətinin müəyyənləşdirilməsi istiqamətində iş aparıb. Beynəlxalq təşkilatlarda, eləcə də xarici ölkələrdə təşkil edilən sərgilərdə həmin abidələrin işğaldan öncə və sonrakı fotolarını nümayiş etdirib. Eyni zamanda, konfranslar təşkil edib, bu mövzuda müxtəlif dillərdə kitab və fotoalbomlar hazırlayıb. Həmin nəşrlərdən biri – Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədovun müəllifi olduğu "İşğal altındakı tarixi-dini abidələrimiz" kitabı Azərbaycan dili ilə yanaşı, ingilis, fars, ərəb və rus dillərində nəşr olunub. Kitab növbəti dəfə alman dilində çap edilib.

Alman dilində çap edilən foto-kitabın əsas məqsədi erməni vandalizmi barədə dünya ictimaiyyətini bir daha məlumatlandırmaqdır.

Qeyd edək ki, ön sözünün müəllifi DQİDK-nın sədri Mübariz Qurbanlı olan nəşri alman dilinə Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin əməkdaşı Rima Hacıyeva tərcümə edib.

# CƏMİYYƏT və DİN

№ 08 (325) / AVQUST 2018-ci il


## SURİYALI QARDAŞLAR 7 İL SONRA HƏCC ZİYARƏTİNDƏ QARŞILAŞDILAR



Suriyada 2011-ci ildən davam edən vətəndaş müharibəsi nəticəsində 7 ildir bir-birini görməyən iki qardaş Məkkə şəhərində Həcc ziyarəti zamanı təsadüfən qarşılaşıb.

Qardaşlar ağlayaraq qucaqlaşıblar. Bu zaman duyğusal anlar yaşanıb, onların ətrafındakı insanlar da göz yaşlarına hakim ola bilməyiblər. Məlumata görə, qardaşlardan biri İordaniyada, digəri isə Suriyada yaşayır.

## Autizmdən əziyyət çəkən uşaqlara kömək edən robot təqdim olunub



Lüksemburq Universitetinin alimləri tərəfindən yaradılmış "LuxAI" startapı "QTrobot" adlı robot təqdim edib. Bu, autizm spektr pozğunluğundan əziyyət çəkən uşaqların müalicəsi məqsədilə hazırlanıb.

Autizmdən əziyyət çəkən insanlarda erkən yaşlardan sosial qarşılıqlı əlaqələrdə problemlər müşahidə edilir: əksər hallarda belə insanlar qapalı olur, çətinliklə yeni münasibətlər qurur və ünsiyyət saxlayırlar.

"LuxAI" startapının yaradıcıları belə hesab edir ki, ünsiyyət zamanı mütəxəssislərlə birgə robot-vasitəçidən istifadə edilməsi uşaqlara təlim və ünsiyyət zamanı psixoloji narahatçılıqdan xilas olmaqda kömək edə bilər. "QTrobot" söz, jest və üz ifadələrinin köməyilə ünsiyyət yaradır. Məsələn, robotun köməyilə uşağa emosiyaları tanımağı, ünsiyyət qurmağı və sadə tapşırıqları səmərəli yerinə yetirməyi öyrətmək mümkündür.

Lüksemburq Universitetinin alimləri autizmdən əziyyət çəkən 4-14 yaş aralığında 15 uşağın robot və həkimlə olan terapiya seansını müqayisə ediblər və məlum olub ki, uşaqlar robota daha çox diqqət yetirir: onlar robota orta hesabla iki dəfə daha çox baxıblar.

## EVSİZLƏR ÜÇÜN PULSUZ EV

Böyük Britaniyada evsizlər üçün rahat evlərin layihəsi hazırlanıb. "iKozie" adlanan qeyri-adi evlər ölkənin "Evsizər Fondu"nun sifarişi ilə layihələndirilib. Bu yaşayış sahəsi evsiz insanlara pulsuz verilir. Yeganə şərt müqavilə bağlamaq və kommunal xərcləri vaxtlı-vaxtında ödəməkdir.

Sahəsi cəmi 17 kvadratmetr olan mobil evi istənilən yerdə quraşdırmaq da mümkündür. Layihə müəllifləri mobil evdə yataq, qonaq və vanna otaqlarını, eləcə də mətbəxi yerləşdirə bilib.

Bir nəfərlik belə evlər fonda 54 min dollara başa gəlib.




### Yadigar söz

*Abdulla Şaiq,*
*Yazıçı, şair*

**Hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (Sentyabr - 2018)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:43 | 06:07 | 12:40 | 17:19 | 19:28 | 20:32 |
| 2 | 04:44 | 06:08 | 12:40 | 17:18 | 19:26 | 20:30 |
| 3 | 04:45 | 06:09 | 12:40 | 17:17 | 19:24 | 20:28 |
| 4 | 04:46 | 06:10 | 12:40 | 17:15 | 19:23 | 20:26 |
| 5 | 04:48 | 06:11 | 12:39 | 17:14 | 19:21 | 20:24 |
| 6 | 04:49 | 06:12 | 12:39 | 17:13 | 19:20 | 20:23 |
| 7 | 04:50 | 06:13 | 12:38 | 17:11 | 19:18 | 20:21 |
| 8 | 04:51 | 06:14 | 12:38 | 17:10 | 19:16 | 20:19 |
| 9 | 04:52 | 06:15 | 12:38 | 17:09 | 19:15 | 20:17 |
| 10 | 04:53 | 06:16 | 12:37 | 17:08 | 19:13 | 20:15 |
| 11 | 04:55 | 06:17 | 12:37 | 17:06 | 19:11 | 20:14 |
| 12 | 04:56 | 06:18 | 12:37 | 17:05 | 19:10 | 20:12 |
| 13 | 04:57 | 06:19 | 12:36 | 17:04 | 19:08 | 20:10 |
| 14 | 04:58 | 06:20 | 12:36 | 17:02 | 19:06 | 20:08 |
| 15 | 04:59 | 06:21 | 12:36 | 17:01 | 19:04 | 20:06 |
| 16 | 05:00 | 06:22 | 12:35 | 16:59 | 19:03 | 20:04 |
| 17 | 05:01 | 06:23 | 12:35 | 16:58 | 19:01 | 20:03 |
| 18 | 05:02 | 06:24 | 12:35 | 16:57 | 18:59 | 20:01 |
| 19 | 05:03 | 06:25 | 12:34 | 16:55 | 18:58 | 19:59 |
| 19 | 05:05 | 06:26 | 12:34 | 16:54 | 18:56 | 19:57 |
| 21 | 05:06 | 06:26 | 12:34 | 16:52 | 18:54 | 19:56 |
| 22 | 05:07 | 06:27 | 12:33 | 16:51 | 18:53 | 19:54 |
| 23 | 05:08 | 06:28 | 12:33 | 16:50 | 18:51 | 19:52 |
| 24 | 05:09 | 06:29 | 12:32 | 16:48 | 18:49 | 19:50 |
| 25 | 05:10 | 06:30 | 12:32 | 16:47 | 18:48 | 19:48 |
| 26 | 05:11 | 06:31 | 12:32 | 16:45 | 18:46 | 19:47 |
| 27 | 05:12 | 06:32 | 12:31 | 16:44 | 18:44 | 19:45 |
| 28 | 05:13 | 06:33 | 12:31 | 16:43 | 18:43 | 19:43 |
| 29 | 05:14 | 06:34 | 12:31 | 16:41 | 18:41 | 19:42 |
| 30 | 05:15 | 06:35 | 12:30 | 16:40 | 18:39 | 19:40 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## Yeni cihazlar yeraltı təkanların sayını və təkrar zəlzələ ehtimalını müəyyən edəcək

Alimlər ilk dəfə olaraq əsas zəlzələdən sonra baş verən yeraltı təkanları dəqiqliklə qeydə alan və təkrar zəlzələ ehtimalını müəyyənləşdirən cihazlardan istifadə ediblər.

Harvard Universitetindən tədqiqat qrupunun hazırladığı yeni texnologiya zəlzələlərin xüsusiyyətlərini konkret şəraitdə öyrənməyə imkan verəcək. Tədqiqata rəhbərlik edən professor Brendan Medi bildirib ki, alimlərin əsas məqsədi yeraltı təkanların vaxtını və şiddətini öyrəndikdən sonra gələcək zəlzələ ehtimalının dəqiqləşdirilməsidir. Onun sözlərinə görə, uzun sürən elmi araşdırmalar zamanı 100 mindən çox yeraltı təkan, o cümlədən 2011-ci ildə Yaponiyada baş vermiş zəlzələ neyron şəbəkəsi olan cihazların vasitəsilə öyrənilib. Məlum olub ki, son illər baş vermiş zəlzələlər əvvəlkilərdən fərqlənir. İnsanın beyin modeli əsasında yaradılan həssas neyron şəbəkəsi əsas zəlzələdən sonra kiçik yeraltı təkanları hesablayır və onların gücünü müəyyən etməklə proqnozlar verə bilir.

Konnektikut Universitetinin professoru Fobi DeVris də neyron şəbəkəsinin həssaslığı nəticəsində yeraltı təkanların daha dəqiq və təfsilatı ilə öyrənildiyi qənaətindədir. Onun sözlərinə görə, bu şəbəkə əsasında işləyən cihazlar seysmometrlərdən fərqlənir və ardıcıl baş verən yeraltı təkanların gücünün müəyyənləşdirilməsində səhvə yol verilməsi ehtimalını daha da azaldır.

Tədqiqat qrupuna daxil olan alimlər hesab edirlər ki, yeni cihazlar gələcəkdə mükəmməl zəlzələdən xəbərdarlıq sisteminin hazırlanmasında ilk addım ola bilər.




**Baş redaktor**
**Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894